www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 3 sentyabr 2025-ci il Çərşənbə № 156 (8766) Qiyməti 60 qəpik

**Xəbər**

## Bakıdakı "toy mafiyası" əndişədə

yazısı səh.13-də

**Gündəm**

### Separatçılara 2 sentyabr "dağlaması"



Xankəndidə qondarma rejimin "xin" binası sökülərkən ermənilər İrəvanda "abidə" açılışı etdilər

yazısı səh.4-də

### Tiencində görüşmədilər, bəs Pekində?

yazısı səh.6-da

### Naxçıvanın blokadasına Brüsseldən diqqət - niyə indi?

yazısı səh.3-də

### "Qırmızı Xaç" Azərbaycandan getdi

yazısı səh.4-də

### Aİ kəşfiyyatçıları hələ sərhəddə qalır

yazısı səh.5-də

### Bir sammitin ortaya çıxardığı gerçəklər

yazısı səh.6-da

### ŞƏT anti-Qərb təşkilatına çevrilərsə...

yazısı səh.7-də

### Sağlamlıq haqda arayış almaq niyə çətinləşib?

yazısı səh.10-da

### Paytaxt tıxaclarının 5 il "ömrü qalıb"

yazısı səh.12-də

### Ambulansda üç doğuşun yaratdığı suallar

yazısı səh.10-da

### Azərbaycan adına qondarma diaspora yaradılır

yazısı səh.14-də

### Yerdən təyyarəyə göndərilən "bəla"

yazısı səh.14-də

# RUSİYA HÖKUMƏTİ "AZƏRBAYCAN MƏSƏLƏSİNDƏ" KREMLƏ QARŞI?

Moskvada münasibətləri daha da gərginləşdirənlərdən fərqli olaraq iqtisadi komanda əlaqələrin mühümlüyünü anlayır - səbəb

yazısı səh.5-də




# Vasif Talıbovun mobil telefonunu "kəsmək" qərarı

Naxçıvan üçün ayrıca mobil operator nə məqsədlə yaradılmışdı, indi niyə bağlanır?

yazısı səh.3-də



### Modi qısasçı Qabbar Sinqx rolunda

yazısı səh.8-də



Şahbaz Xuduoğlu

### Tanınmış naşir xəstəxanalardan yazdı: "Gedin, ölün..."

yazısı səh.10-da



Stiven Dotin

### "İngilislər Bakıda anti-Rusiya komandası yaradır" yalanı

yazısı səh.9-da



## Parlamentdə komitə iclasları başlayır

**Milli Məclisin deputatları tətildən qayıdıblar.**

Sentyabrın 10-dan parlamentdə komitə iclasları başlayacaq. Komitələrin ilk iclaslarında 2025-ci il payız sessiyasının qanunvericilik işləri planı layihəsi müzakirə ediləcək. Payız sessiyasının plenar iclasları isə sentyabrın 30-dan etibarən start götürəcək. Milli Məclisin Daxili Nizamnaməsinə görə, payız sessiyası dekabrın 30-dək davam edir.

## İraqlı Ermənistandan Azərbaycana keçmək istədi



**Dövlət sərhədinin təhlükəsizliyi və etibarlı mühafizəsinin təmin edilməsi istiqamətində mübarizə tədbirləri uğurla davam etdirilir.**

Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən verilən xəbərə görə, sentyabrın 1-də DSX Sərhəd Qoşunlarının "Qubadlı" əlahiddə sərhəd diviziyasının xidməti ərazisində Ermənistandan Azərbaycan Respublikası istiqamətinə dövlət sərhədinin pozulması əlamətləri aşkar edilib.

Çətin relyefə malik olan, dağlıq və sıx meşəlik ərazidə həyata keçirilmiş əməliyyat-qoşun tədbirləri nəticəsində dövlət sərhədini pozmuş İraq Respublikası vətəndaşı - 2002-ci il təvəllüdlü Ali Emad Attallah Badravi saxlanılıb.

Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

## Nəsimi Nəbizadədən şok sözlər



**Aparıcı Nəsimi Nəbizadənin bir müddətdir ki, reabilitasiya mərkəzinə yerləşdirilməsi ilə bağlı xəbərlər yayılıb.**

Bu barədə özü sosial mediada yayılan məlumatların rəy bölməsində açıqlama yazıb.

**Nəsimi Nəbizadə yayılan iddiaları təkzib edərək bildirib:** "Ay qardaşlar, ay bacılar, yalandır bu yazılanlar... Mən düz 2 ildir çox yaxşıyam, evdəyəm, doğmalarımın yanındayam. Səhhətim də əladır. Dostlar da yanıma gəlir, Saray kəndindəyəm, bağdayam. Kim istəyirsə, qonağım olsun, gəlsin.

Bu reabilitasiya mərkəzləri reklam üçün hər vasitəyə əl atır, bəzi saytlarla birgə hərəkət edirlər. Qapıma gündə 20-dən çox mərkəzdən gəlirlər, deyirlər: "Nəsimi müəllim, 1 həftə bizə gəlin, qonağımız olun, nə istəyirsiniz yaradaq. Yeyin, için, dincəlin. Sonra da mətbuata haqqımızda müsbət danışın". Budur bunların dərdi.

Getməyəndə isə saxta saytlar vasitəsilə belə şayiələr yayırlar. Hətta kimlərsə gəlib qapımda gizlicə çəkiliş edir, sonra da çıxıb gedirlər. Bu, süjet deyil. Vəziyyətim yaxşıdır, kim inanmırsa, gəlib qapımı döysün, məni görsün".

## Nazpəri Dostəliyeva səhnədən gedir



**Xalq artisti Nazpəri Dostəliyeva səhnədən getməyə hazırlaşır. Pravda.az xəbər verir ki, bu barədə o, "Həftənin qonağı" verilişində danışıb.**

**O bildirib:** "Hər gün oyananda Allahıma dua edirəm ki, məni övladıma tez qovuşdursun. Ansamblın uşaqlarını yığıb "Əlvida" adlı konsertimi verib, sənətimdən uzaqlaşmaq istədim. Mənə heç kim kömək etmədi. Hər kəs qarşı çıxdı. Yəqin ki, bir azdan məni sevənlərə "Əlvida" deyib, gözəl bir konsert edib, səhnədən uzaqlaşacağam. Hərdən Allaha çığırmaq istəyirəm ki, mən niyə bu səhnədəyəm".

Xatırladaq ki, Nazpəri Dostəliyevanın oğlu Əli Quliyev 2021-ci ildə 41 yaşında vəfat edib.

# İsti hava nə qədər davam edəcək?




**Yay mövsümünün sonlarına doğru yaxınlaşsaq da, ölkə ərazisində isti hava şəraiti hələ də qalmaqda davam edir. Belə ki, sentyabr ayının başlamasına baxmayaraq, havada nəzərəçarpacaq temperatur enişi müşahidə olunmur. Gün ərzində temperatur bəzi yerlərdə 30-35 dərəcə, bəzən isə daha yüksək qeydə alınır.**

Modern.az-a açıqlamasında **Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri Amin Məmmədov** bildirib ki, əslində bu hal son illər üçün artıq adi bir mənzərəyə çevrilib.

"Məhz bu səbəbdən illər əvvəl dərs ilinin başlanğıc tarixi sentyabrın 1-dən 15-nə keçirildi. Çünki ölkəmizdə son illərdə sentyabrın ortalarınadək, hətta 20-nə kimi isti yay havası müşahidə olunmağa davam edir. Gecə və səhər saatlarında nisbətən sərin hava hiss olunsa da, günün böyük bir hissəsində havanın temperaturu yüksək olur".

O həmçinin əlavə edib ki, bu tendensiya yaxın illərdə də dəyişməyə bilər: "Yay mövsümünün sonuna təsadüf edən bu isti günlər iqlim norması çərçivəsində qiymətləndirilir və narahatedici hal kimi qəbul edilmir.

Temperaturun sentyabrın 15-20-sindən sonra enməsi gözlənilsə də, bəzi hallarda isti hava şəraitinin bir qədər uzun müddət davam edəcəyi ehtimal olunur. Bu baxımdan indidən dəqiq proqnoz verməkçətindir".



## Sarayda qətl

**Sentyabrın 2-də saat 14 radələrində Abşeron rayonunun Saray qəsəbəsi ərazisində Əminə Məlikovanın öldürülməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.**

Abşeron Rayon Prokurorluğundan verilən məlumata görə, araşdırma zamanı 1967-ci il təvəllüdlü Pərviz Məlikovun qardaşı arvadı 1972-ci il təvəllüdlü Əminə Məlikovaya bıçaqla xəsarət yetirərək sonucunu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Abşeron Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adamöldürmə) maddəsi ilə cinayət işi başlanıb. Pərviz Məlikov işüzrə şübhəli şəxs qismində tutulub.



## Kərəm Mustafayevin Londonda restoranları var?

**Müdafiə nazirinin keçmiş müavini, Əlahiddə Ümumqoşun Ordusunun komandanı (2014-2024) Kərəm Mustafayev vəzifəsindən azad edildikdən sonra qızlarının İngiltərədəki şirkətləri və restoranı bağlanıb.**

Cebheinfo.az xəbər verir ki, bu barədə Almaniyada yaşayan jurnalist Cavanşir Həsənli bildirib.

Onun sözlərinə görə, "London Gastronomy Group LTD" şirkəti onun vəzifədən azad edilməsindən cəmi 6 gün sonra ləğv edilib.

"Foley's Restaurant LIMITED" şirkəti və eyniadlı lüks restoranın fəaliyyətinə isə bu ilin aprelində iflas qərarı ilə son verilib.

## O uşaq səhiyyə müəssisəsinə yerləşdirildi

**Qəyyumu tərəfindən zorakılığa məruz qaldığı iddia edilən uşaqla bağlı məlumat daxil olduğu ilk andan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin əməkdaşları prosesə cəlb edilib.**

Bu barədə Sosial Xidmətlər Agentliyindən məlumat verilib.

Bildirilib ki, uşaq aidiyyəti qurumlarla koordinasiyalı şəkildə səhiyyə müəssisəsinə yerləşdirilib.

Müayinə və qiymətləndirilmə prosedurları bitdikdən sonra o, agentliyin müvafiq müəssisəsinə yerləşdiriləcək.

Qeyd edək ki, Sabunçu rayon ərazisində yaşayan, hər iki valideynini itirmiş 14 yaşlı yeniyetmə xalası tərəfindən qəyyumluğa götürülmüşdü.



## 15 saylı həbsxanada yeni rəis

**Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 15 saylı cəzaçəkmə müəssisəsinə yeni rəis təyinatı olub.**

"Qaynarinfo" xəbər verir ki, ədliyyə naziri Fərid Əhmədovun müvafiq əmri ilə müəssisəyə rəhbərlik Ramiq Nəsibova tapşırılıb.

Ramiq Nəsibov indiyədək Penitensiar Xidmətdə müxtəlif vəzifələrdə çalışıb. O, uzun illər xidmətin əməliyyat şöbəsinin rəisi vəzifəsini tutub. Qeyd edək ki, bir neçə gün əvvəl 15 saylı cəzaçəkmə müəssisəsinin rəisi Rəşad Əhədov vəzifəsindən azad olunaraq, 9 saylı cəzaçəkmə müəssisəsinin rəisi təyin edilib.

## TikTok-da intim görüntülərlə şantaj edən şəxs saxlanıldı

**TikTok-da "fake" qadın profilləri yaradaraq vətəndaşların qeyri-etik, intim görüntülərini əldə edib, onlardan hədə-qorxu ilə pul tələb edən 1998-ci il təvəllüdlü Şamil Fətullayev saxlanılıb və məsuliyyətə cəlb olunub.**

İlkin məlumata görə, o, cinayətkar fəaliyyətə 700 manatdan başlayan qanunsuz pul tələbləri ilə başlayaraq məbləği daha da artırıb. Fakt üzrə Ş.Fətullayevə qarşı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin hədə-qorxu ilə tələb etmə maddəsi ilə ittiham elan olunub və barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

Qeyd edək ki, cinayət işi üzrə onlarla zərərçəkmiş var.

## Azərbaycanda ana və körpə ölümü azalıb

**Ötən il Azərbaycanda 29 ana ölümü qeydə alınıb. 2023-cü ildə isə bu say 33 nəfər təşkil edib.**

Bu barədə Dövlət Statistika Komitəsinin "Azərbaycanın demoqrafik göstəriciləri" məcmuəsində öz əksini tapıb.

Qeyd edilib ki, 2024-cü ildə 1420, 2023-cü ildə isə 2039 körpə ölümü qeydə alı-

Yeni MÜSAVAT

N 156 (8766) 3 sentyabr 2025

# Vasif Talıbovun mobil telefonunu "kəsmək" qərarı

## Naxçıvan üçün ayrıca mobil operator nə məqsədlə yaradılmışdı, indi niyə bağlanır?

**Naxçıvan Muxtar Respublikasında telekommunikasiya xidmətləri göstərən şirkət "Naxtel" MMC 2025-ci il dekabrın 1-dən fəaliyyətini dayandıracaq. Bu barədə şirkət sosial şəbəkədəki səhifəsində məlumat yayıb.**

"Naxtel" abunəçilərinə 2025-ci il oktyabrın 1-dən dekabrın 1-dək ölkədə fəaliyyət göstərən digər mobil operatorlarla ("Azercell", "Bakcell", "Nar") əlaqə saxlamaları, mövcud nömrələrini saxlamaq və mobil rabitə xidmətlərindən istifadəni davam etdirmək tövsiyə olunur.

"Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyəti 25 oktyabr 2016-cı ildə fəaliyyətə başlayıb. "Naxtel" Azərbaycanın sayca 4-cü, ölkənin yeganə regional mobil operatorudur. "Naxtel" mobil operatoru muxtar respublikanın yaşayış məntəqələrinin 98 faizini əhatə edib. "Naxtel" Sahibkarlığın İnkişafına Dəstək Fondu tərəfindən ayrılmış 10 milyon kredit hesabına yaradılıb. "Naxtel"i müasir və keyfiyyətli avadanlıqlarla Çin Xalq Respublikasının "Huawei" şirkəti təmin edib. "Naxtel"ə uzun illər Kamil Yusifov rəhbərlik edib.

2023-ci ilin yayından isə bu vəzifəyə Rəşad Namazov təyin olunub. Rəşad Namazov sözügedən vəzifəyə təyin olunana qədər "Araztech" MMC-yə rəhbərlik edib. Bəzi bilgilərə görə, Ali Məclisin o vaxtkı sədri Vasif Talıbovun razılığı və ya xeyir-duası olmadan Naxçıvanda bu cür şirkət yaratmaq mümkünsüz iş idi. Mediada bu bağlılığı təsdiq edən xəbərlər yoxdur, amma Ali Məclis sədrinin mobil operatoru da himayə edə biləcəyi haqda çoxsaylı faktlar var. Bəllidir ki, Talıbov Naxçıvanda qapalı rejim yaratmağa çalışıb, illərlə Bakıdan heç bir şirkətin muxtar respublikada hətta filialını, nümayəndəliyini yaratmağa imkan verməyib. Belə görünür ki, "Naxtel" də digər mobil operatorların Naxçıvana girişini yasaqlamaq üçün yaradılıb.

Bəs bu qərar Naxçıvan əhalisi-abonentləri üçün hansısa problemlər meydana gətirə bilərmi? Yoxsa elə bağlanması lazım idi? Regional mobil operatorlara ehtiyac varmı?

**REAL Partiyasının sədri, iqtisadçı Natiq Cəfərli "Yeni Müsavat"a bildirdi ki, "Naxtel"in fəaliyyətinin dayandırılması qərarı şirkətin əsil sahibi, onun arxasında dayanan şəxslərlə bağlıdır:** "Ümumiyyətlə, Azərbaycanda mobil operatorlar bazarı çox dardır. Yəni faktiki olaraq regional operatorlar yoxdur. Bütün respublikanı əhatə mobil operatorların sayı isə cəmi üçdür. Mobil operatorların sayı az olduğu üçün də bazarda öz qiymətlərini və şərtlərini diktə etmək imkanlarına malikdirlər. Biz istehlakçı və vətəndaş kimi çox istərdik ki, Azərbaycanda üç yox, məsələn 8-9 mobil operator fəaliyyət göstərsin və bizim seçim imkanlarımız artsın. Mobil operatorlar arasında rəqabət də bu zaman güclü olar və bu da işin faydasına olardı. Amma təəssüf ki, hazırda belə deyil. Belə görünür ki, Naxçıvanda "Naxtel"in yerinə yerli yeni operatorun fəaliyyət göstərəcəyi nəzərdə tutulmur. Ən azından yayılan açıqlamada bu barədə deyilmir".




**Əslən Naxçıvandan olan siyasi şərhçi Aydın Quliyev isə bildirdi ki, Naxçıvanda illər öncə regional mobil rabitə şirkətinin yaradılması anormal qərar idi:** "Ona görə ki, Azərbaycan kimi böyük ərazisi olmayan ölkədə ümumrespublika əhəmiyyətli mobil rabitə operatorlarının fəaliyyəti kifayət edir. Çünki onlar ölkəni tam şəkildə əhatə edə bilirlər. Ona görə də hansısa ayrıca bölgədə mobil operatora ehtiyac qalmır. Hansısa bölgədə mobil operatorun yaradılması anormaldır. Naxçıvanda indiyə qədər "Naxtel" adında ayrıca bir mobil operatorun fəaliyyət göstərməsi də təbii ki, normal deyildi. Bunun hansı dövrdə yaradıldığı bizə bəllidir. O zaman yaradılırdı ki, Naxçıvanda az qala Xarici İşlər Nazirliyi də yaratmaq istəyirdilər ki, bu da unitar, müstəqil Azərbaycan dövlətçiliyi prinsipi baxımından olduqca yolverilməz idi. Naxçıvan Muxtar Respublikasının əlahiddə bir dövlət qurumu olduğunu nümayişkaranə şəkildə göstərmək o zaman kimlərinsə marağında idi. Bunun ifadə formalarından biri kimi də ayrılıqda mobil operator şirkətini də təsis etmişdilər. Bir anlığa fərz edək ki, təkcə Naxçıvan yox, Azərbaycanın digər bölgələrində də əgər regional mobil operatorların təsis edilməsi reallaşsa, onda ölkədə nə baş verə bilər? Xaos kimi bir vəziyyət yaranar. Azərbaycan ərazisi nəhəng bir ölkə deyil ki, regional mobil rabitə operatorlarına zərurət olsun. Bütün ölkəni əhatə eləyən mobil operatorların praktikası və çoxluğu daha doğru olar. Ona görə də Naxçıvan Muxtar Respublikasını əhatə edən regional "Naxtel" mobil operator şirkətinin fəaliyyətinin dayandırılması düzgün qərardır. Bu, bir zamanlar verilmiş yanlış bir qərarın ortadan qaldırılmasıdır".

**A.Quliyev vurğuladı ki, Naxçıvanda "Naxtel"in abonentləri bu qərardan sonra heç bir çətinlik çəkməyəcəklər:** "Çünki nömrələr saxlanmaq şərtilə onlar bütün Azərbaycanı əhatə edən mobil operatorlara qoşulacaqlar. Bu qoşulma texniki bir məsələdir və bir neçə saniyə ərzində həll ediləcək məsələdir. Buna görə də Naxçıvan camaatının heç bir panikaya düşməsinə, narahat olmasına lüzum yoxdur".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Naxçıvanın blokadasına Brüsseldən diqqət - niyə indi?

## Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrono muxtar respublika rəhbərliyi ilə görüşdü; **Fərəc Quliyev:** "Vasif Talıbov rejimi onların üzünə qapıları bağlamışdı..."

**Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstandakı böhran üzrə xüsusi nümayəndəsi Maqdalena Qrono Azərbaycana səfəri ilə bağlı sosial şəbəkədə paylaşım edib. Onun sözlərinə görə, Avropa İttifaqı yaxın tərəfdaş kimi münasibətlərin tənzimlənməsində və regionda həyata keçirilməsində öz rolunu davam etdirəcək.**

Qrononun Naxçıvana səfəri diqqət çəkib. Çünki Aİ rəsmiləri ilk dəfədir ki, Naxçıvana da diqqət ayırır. Səfər çərçivəsində Aİ rəsmiləri muxtar respublikada Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ilə görüşüb.

Səlahiyyətli nümayəndə bildirib ki, Ermənistanın uzun illər davam edən işğalçılıq siyasəti nəticəsində Naxçıvan Muxtar Respublikası ölkənin əsas hissəsindən ayrı düşüb və quru nəqliyyat əlaqələri kəsilib. Ötən illər ərzində işğal altında qalmış ərazilərdəki mövcud nəqliyyat infrastrukturu, o cümlədən dəmir yolu sistemi dağıdılıb. Bu baxımdan Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində əldə edilmiş nəticələr bölgə üçün mühüm gələcək vəd edir.



Maqdalena Qrono Naxçıvanın Avropa və Asiyanı birləşdirəcək mühüm strateji mövqeyinə toxunaraq bu perspektivdə geniş logistik-nəqliyyat layihələrinin icrasının region üçün strateji əhəmiyyətini diqqətə çatdırıb. Zəngəzur dəhlizi ilə bağlı Vaşinqton razılaşmasından sonra Avropa İttifaqının yadına niyə Naxçıvanın blokadası düşdü?

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev** "Yeni Müsavat"a bildirdi ki, Maqdalena Qrononun missiyası Cənubi Qafqazda, o cümlədən Gürcüstanda böhranın aradan qaldırılması və Avropa İttifaqı ilə münasibətləri üstün vəziyyətə gətirməkdir. Azərbaycanla da bəzi Avropa təsisatları arasında bu gün müəyyən soyuqluq var. Bunun aradan qaldırılması yolları axtarılır: "Aradan qaldırılması da vacibdir. Ona görə də Avropa İttifaqının xüsusi nümayəndəsinin bölgəyə gəlməsi və yerindəcə bir sıra problemlərə toxunması təbiidir. Bu səfərin müsbət nəticə verəcəyinə inanıram. Üstəlik, bu səfər və səslənən fikir ona işarədir ki, artıq Zəngəzur dəhlizinin reallaşması zamanı çatıb. Qərb təsisatları da bunun artıq reallaşma mərhələsində olduğunun fərqindədir və buna görə də prosesdən kənarda qalmaq istəmirlər. Zəngəzur dəhlizi Avropanın da faydasına olacaq. İndiyə qədər dəhliz məsələsi uğrunda savaş gedirdi, Rusiyanın, İranın prosesə maneçilikləri var idi. Artıq bu cür maneçiliklər prosesi dayandırmaq imkanında deyil. 8 avqustda Vaşinqtonda Donald Trampın da iştirakı ilə əldə olunan razılaşmadan sonra Avropa İttifaqında da bu fikir yaranıb ki, artıq kimsə Zəngəzur dəhlizinin açılmasına mane ola bilməyəcək. Əgər İran parlamentinin sədri bu dəhlizlə bağlı "biz bu məsələdə Türkiyə ilə birlikdə çalışacağıq" bəyanatını veribsə, deməli, Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə birləşdirəcək dəhlizin açılmasına inam bir qədər də artır".

**Həmsöhbətimiz qeyd etdi ki, Naxçıvana təkcə iqtisadi kəsişmələr nöqtəsi kimi baxılmır. Həm də siyasi münasibətlərin kəsişdiyi yer kimi baxılır:** "Bütövlükdə Azərbaycan yeni dünya düzəninin Orta Asiyaya transferi üçün bir platsdarm kimi nəzərə tutulan bir yer idi. Buna görə də Naxçıvanın xüsusi strateji əhəmiyyəti artır. Bunu Avropa İttifaqı da görür və Naxçıvana diqqətin ayrılması bundan qaynaqlanır. Şimal-Cənub xəttinin də Şərq-Qərb xətti ilə Naxçıvanda kəsişəcəyi mesajı burada var. Ciddi bir şəbəkə formalaşır və burada Avropa İttifaqının da ciddi oyunçu olaraq məsələlərin içərisində olması amili var. Çalışır ki, burada artıq proseslər o istiqamətə getsin ki, bölgədə olan əsas oyunçular Azərbaycan, Gürcüstan, Ermənistan proseslərdə Avropa İttifaqı ilə bir yerdə olsun və Avropa İttifaqı tənzimləyici rolunda çıxış edə bilsin".

**F.Quliyev hesab edir ki, Naxçıvana bir kəsişmə nöqtəsi olaraq gəlməkdə başqa bir səbəb Vasif Talıbov rejimindən sonra tətbiq olunan yeni idarəetmə sistemi ilə tanış olmaq, əməkdaşlıq etməkdir:** "Vasif Talıbov rejimi onların üzünə qapıları bağlamışdı. İndi yeni islahatçı xarakterli idarəetmə rejimi ilə əlaqələr qurub danışıqlar aparmağı məqbul hesab edirlər. Avropa İttifaqının digər istəyi bundan ibarətdir ki, soyuq münasibətləri aradan qaldırsınlar. Çünki bölgə uğrunda savaşda Rusiyanın tam olaraq kənara çəkilmədiyi ortadadır. Avropa İttifaqı isə Cənubi Qafqaz ölkələri ilə münasibətləri sahmana salmağa çalışır. Azərbaycanla münasibətlərdə məqsədə çatmağın yollarından biri kimi də Azərbaycan üçün mühüm bölgə olan Naxçıvana səfər edib Naxçıvanın faydasına olan mövqe ortaya qoymağı seçiblər".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Separatçılara 2 sentyabr “dağlaması”

## Xankəndidə qondarma rejimin “xarici işlər nazirliyi”nin binası sökülərkən bir qrup erməni İrəvanda daha bir qondarma “abidə”nin açılışını etdi

**Sentyabrın 2-də Xankəndidə uzun müddət qondarma rejimin əsas simvolu və atributu kimi təqdim edilən qondarma rejimin “Xarici İşlər Nazirliyi”nin binasının söküntüsünə başlanılıb.**

Binanın söküntü işlərinə məhz sentyabrın 2-də başlanılması Azərbaycan üçün rəmzi məna daşıyır. Çünki məhz sentyabrın 2-si tarixi Azərbaycanın işğal olunmuş ərazilərində qondarma rejimin elan olunmasının ildönümü kimi qeyd edilirdi.

Qeyd edək ki, vaxtilə işğal olunmuş ərazilərə səfər edən xarici ermənipərəst siyasətçilərlə bu binada görüşlər keçirilir, bu ərazilərə giriş üçün qanunsuz olaraq vizalar, xarici jurnalistlərin qanunsuz akkreditasiyaları imzalanırdı. Bütün bunlar Azərbaycanın dövlət suverenliyinə hörmətsizlik idi.

Hətta bu gün hərbi cinayətlərdə ittiham olunan və hazırda Bakıda məhkəməsi keçirilən Babayan və digərləri bu binada oturaraq Qarabağda Azərbaycan bayrağının yalnız bir halda dalğalana biləcəyini, bunun da məhz səfirliyin açılması ola biləcəyini bildirirdilər.

Ona görə də bu binanın sökülməsinə məhz sentyabrın 2-də başlanılmasının böyük siyasi və rəmzi mənası var.

Artıq beş ildir ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı və sistemli bərpa-quruculuq prosesi həyata keçirilir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını əhatə edən “Böyük Qayıdış” Proqramı yalnız dağıdılmış infrastrukturun deyil, həm də milli kimliyin, tarixi yaddaşın və dövlətçiliyin bərpasını təmin edən çoxşaxəli bir prosesdir. Proqram çərçivəsində azad olunmuş ərazilərdə, şəhər, qəsəbə və kəndlərdə müasir şəhərsalma prinsiplərinə əsaslanan kompleks layihələr icra olunur, yaşayış məhəllələri salınır, məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları, yollar, enerji və su təchizatı sistemləri qurulur. Eyni zamanda mədəni irs nümunələri bərpa olunur, tarixi abidələr yenidən dirçəldilir.



Bu tikinti dalğasının davamı olaraq bu gündən Xankəndi şəhərində daha bir mühüm və rəmzi layihənin gerçəkləşdirilməsinə başlanılıb. Uzun illər separatçı rejimin qondarma “Xarici İşlər Nazirliyi”nin istifadə etdiyi inzibati binanın sökülməsi də bu layihənin tərkib hissəsidir. Bu binanın sökülməsi yalnız rəmzi məna daşımır, bu, həm də şəhərsalma baxımından əhəmiyyətlidir. Çünki tamamilə yöndəmsiz və şəhər arxitekturasına zidd olan bu binanın Xankəndidə müasir urban planlaşdırmasının bütün parametrləri nəzərə alınmaqla həyata keçirilən şəhərsalma siyasəti və şəhərin gözəlləşməsi prosesi çərçivəsində sökülməsinə ciddi zərurət yaranmışdı.

Sökülən binanın yerində Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi üçün müasir memarlıq üslubunda yeni üçmərtəbəli inzibati bina inşa olunacaq. Yeni inzibati binanın memarlıq-konseptual həlli və texniki göstəriciləri Qarabağın strateji inkişaf prioritetlərinə uyğun şəkildə hazırlanıb. Baş İdarənin binasının 2027-ci ilin əvvəlində istismara verilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpası şəraitində həyata keçirilən “Böyük Qayıdış” proqramının davamı olaraq inşa ediləcək bu bina Qarabağda dövlət idarəçiliyinin möhkəmləndirilməsinə xidmət edərək, xalqımızın sarsılmaz iradəsini və dövlətimizin gücünü ifadə edən dəyərli simvol kimi tarixdə öz layiqli yerini tutacaq. (Mənbə: Azərtac).

Sentyabrın 2-də İrəvanda erməni işğalına dair “Artsaxın çağırışı” adlı abidənin açılışı olub.



Bu barədə Ermənistan KİV-i məlumat və görüntü yayıb. Qondarma “memorial”ın açılış mərasimində Qarabağdan qaçmış Samvel Şahramanyan, erməni müxalifətinin nümayəndələri və bir sıra ictimai xadimlər iştirak ediblər.

“Abidə”nin yanında Qarabağdan qaçan separatçıların əski parçası və Ermənistanın bayrağı asılıb. Açılışda çıxış edən revanşistlər Azərbaycana qarşı ərazi iddialarını bir daha səsləndirib, ermənilərin Qarabağa qayıtmasının vacibliyini vurğulayıblar.

Maraqlıdır ki, Azərbaycanla sülh sazişini paraflayan Ermənistan hakimiyyəti Qarabağ müharibəsini başladan separatçıların xatirəsinə ucaldılan abidənin inşası və açılışına mane olmayıb.

Bu hadisə rəsmi İrəvanın Azərbaycanın ərazi bütövlüyünü tanımaqla bağlı üzərinə düşən öhdəlikləri nə cür yerinə yetirdiyini nümayiş etdirir.

❑ **“Yeni Müsavat”**

# “Bu cür ikrah doğuran kampaniyalar...”

## Milli Məclis bəyanat yaydı



**Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyası Rusiya Federasiyası ərazisindən ölkəmizə qarşı kütləvi surətdə informasiya kampaniyasına start verilməsi ilə bağlı bəyanat yayıb.**

Milli Məclisdən verilən xəbərə görə, bəyanatda bildirilib ki, avqustun 27-də Azərbaycan Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanının “Əl-Ərəbiyyə” telekanalına müsahibəsi yayılandan dərhal sonra Rusiya Federasiyası ərazisindən ölkəmizə qarşı kütləvi surətdə informasiya kampaniyasına start verilib.

“Monitorinq zamanı müəyyən edilib ki, aparıcının Zəngəzur dəhlizi ilə bağlı sualına Azərbaycan Prezidentinin tarixi faktlara əsaslanan cavabı kontekstdən çıxarılaraq saxtalaşdırılmış və ya təhrif olunmuş formada rus oxucusuna təqdim edilir.

Rusiya cəmiyyətində anti-Azərbaycan təbliğatını alovlandırmaq məqsədilə təşkil edilən kampaniya televiziya kanalları və xəbər saytları, sosial media platformaları və müəyyən təsiretmə roluna malik radikal mövqeli şəxslər vasitəsilə aparılır.

Kampaniyada Rusiya ərazisində fəaliyyəti qadağan edilmiş və məhdudlaşdırılmış Facebook, Instagram və X kimi platformalardan, habelə digər ölkə vətəndaşlarının adından yaradılan sosial media profillərindən və botlardan da geniş istifadə olunduğu müşahidə edilib.

Kampaniyada diqqət çəkən digər bir element isə Azərbaycanın sosial media seqmentinin hədəfli reklamlar vasitəsi seçilməsi və orada ölkəmizin suverenliyi və ərazi bütövlüyünə qarşı təhdidedici fikirlərin yer almasıdır.

Onu da qeyd etməliyik ki, bu cür ikrah doğuran kampaniyaların Azərbaycanda ictimai rəyə heç bir təsiri yoxdur. Bu cür fəaliyyətlər yalnız Rusiya cəmiyyətini yalan faktlara söykənərək qızışdırmağa, qonşu dövlətlərlə əsassız düşmənçiliyə sürükləyir. Rusiyanı narahat edən “rusofobiya” sindromunun köklərini “Z” blogerlərin fəaliyyətində axtarmaq lazımdır.

Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiya aidiyyəti dövlət qurumları ilə birgə dövlətimizə qarşı aparılan bu qeyri-dost hərəkətləri yaxından izləyir və müvafiq qabaqlayıcı tədbirləri davam etdirir", - bəyanatda deyilir.

# “Qırmızı Xaç” Azərbaycandan getdi

**Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) Azərbaycan Hökumətinin qərarına əsasən, 3 sentyabr 2025-ci il tarixində ölkədəki nümayəndəliyini bağlayacaq.**

Bu barədə Beynəlxalq Qızıl Xaç Komitəsindən bildirilib.

Qeyd olunub ki, BQXK öz mandatına və ölkənin Cenevrə konvensiyaları üzrə öhdəliklərinə uyğun olaraq beynəlxalq humanitar hüququn (BHH) himayə etdiyi şəxslərə dəstək göstərmək üçün Azərbaycanın hakimiyyət orqanları ilə qarşılıqlı əlaqədə olmağa davam edəcək.




“Biz humanitar diplomatiya, BHH və ortaq maraq mövzusu olan digər humanitar məsələlərə dair dialoqumuzu davam etdirmək niyyətindəyik. 1992-ci ildən başlayaraq BQXK münaqişədən zərərçəkmiş insanların təcili və zəruri ehtiyaclarını qarşılamağa kömək etmiş, zərərçəkmiş insanlara psixososial dəstək göstərmiş, kritik əhəmiyyəti olan infrastrukturu təkmilləşdirmiş və mina və digər partlayıcı sursatlarla çirklənmiş ərazilərdə mina risklərinə dair maarifləndirmə və təhlükəsiz davranış layihələri həyata keçirmişdir. BQXK beynəlxalq humanitar hüququn icrasının təbliğində və münaqişə ilə əlaqədar itkin düşmüş insanların taleyinə aydınlıq gətirilməsində hakimiyyət orqanlarına dəstək göstərmişdir. Biz münaqişə ilə əlaqədar saxlanılan şəxslərə baş çəkərək onların saxlanma şəraitinin və onlarla rəftarın monitorinqini aparmış, ailələri ilə əlaqələrinin qorunmasına kömək etmişik. Biz gördüyümüz bütün işlərdə Azərbaycan Qızıl Aypara Cəmiyyəti, nazirliklər və dövlət qurumları, eləcə də Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin Beynəlxalq Federasiyası kimi tərəfdaşlarımızla sıx əməkdaşlıq etmişik”, - açıqlamada bildirilir.

# Rusiya hökuməti "Azərbaycan məsələsində" Kremlə qarşı?

## Moskvada münasibətləri daha da gərginləşdirənlərdən fərqli olaraq iqtisadi komanda əlaqələrin mühümlüyünü anlayır - səbəb



**Rusiya baş nazirinin müavini Aleksey Overçuk jurnalistlərə bildirib ki, Rusiya və Azərbaycan arasında iqtisadi əməkdaşlıq iki ölkə üçün "çox vacibdir" və münasibətlərin yaxşılaşdırılması istiqamətində işlər aparılır.**

"Biz hökumətlərarası komissiya keçirdik və iqtisadi sahədə hər ikimiz qeyd etdik ki, əməkdaşlığımız inkişaf edir. Və Rusiya ilə Azərbaycan arasında mövcud olan əməkdaşlıq ölkələrimiz üçün çox vacibdir. Və biz bu münasibətləri yaxşılaşdırmağa çalışırıq", - TASS Overçukdan sitat gətirir.

Rusiya baş nazirinin müavini Azərbaycanla iqtisadi əlaqələrin inkişafı haqda həmişə müsbət dəyərləndirmələr verən məmurlardandır. Overçuk siyasi gərginliyin davam etdiyi zamanda Azərbaycanla iqtisadi əlaqələrin inkişafından danışır və hətta iqtisadi əlaqələrin kəsilməsi barədə bəzi qızışdırıcı çağırışlara baxmayaraq, hökumətin Azərbaycanla iqtisadi münasibətləri pozmaqda maraqlı olmadığnı bəyan edib.

Yada salaq ki, bu yaxınlarda Həştərxanda Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 23-cü iclası keçirilib. İclasda Azərbaycan-Rusiya iqtisadi əməkdaşlığının müxtəlif istiqamətlərdə mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub, investisiyalar, sənaye, nəqliyyat-tranzit və digər sahələrdə həyata keçirilən birgə layihələr nəzərdən keçirilib.

İclasın yekunlarına dair Ş.Mustafayev və A.Overçuk Azərbaycanla Rusiya arasında iqtisadi əməkdaşıq üzrə Hökumətlərarası Komissiyanın 23-cü iclasının Protokolunu imzalayıblar. Belə görünür ki, Kremlin hazırkı vəziyyətə uyğun siyasi kursunu dəstəkləyərək Azərbaycanla münasibətləri daha da gərginləşdirənlərdən fərqli olaraq iqtisadi komanda əlaqələrin mühümlüyünü anlayır. Əlbəttə, əgər Kremldən iqtisadi əlaqələri böhrana soxacaq tapşırıq gələrsə, Overçuk və onun kimi düşünən iqtisadi komanda üzvləri heç bir müqavimət göstərə bilməzlər. Amma hələ ki Rusiya-Azərbaycan əlaqələrinin iqtisadi müstəvidə davamı gələcək üçün optimist perspektiv yaradır.

**Yeri gəlmişkən, Rusiya Dövlət Dumasının Beynəlxalq məsələlər komitəsinin sədr müavini Aleksey Çepa da Moskva-Bakı münasibətləri ilə bağlı diqqətçəkən açıqlama verib. Deputat bildirib ki, bütün çətinliklərə baxmayaraq, Rusiya və Azərbaycan arasındakı dostluğun bərpası labüddür. Onun sözlərinə görə, iki ölkə arasında əməkdaşlıq qarşıdurmadan qat-qat daha faydalıdır, xüsusilə də iqtisadi sahədə:** "Dostluq münasibətlərinin və iqtisadi maraqların inkişaf perspektivləri çox böyükdür. İstənilən halda istiləşmə qaçılmazdır - bu, sadəcə, zaman məsələsidir. Sual yaradan məqamlar var, amma yavaş-yavaş hamısı həll ediləcək".

Xatırladaq ki, son aylarda Azərbaycan-Rusiya münasibətləri "soyuq müharibə"ni xatırladır. Bakı ilə Moskva arasında gərginlik dərinləşir, informasiya savaşı və qarşılıqlı ittihamlar güclənir. Bu mənzərədə Çepanın "qaçılmaz istiləşmə" barədə bəyanatı heyrətamiz açıqlama kimi görünür.

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə Rusiyanın ikibaşlı siyasətini İranla müqayisə edib. Onun fikrincə, cənub qonşumuzda da hökumət səviyyəsində isti açıqlamalar səslənir, mühafizəkar qanad Azərbaycana şər-böhtan, təhdid yağdırmaqdan əl çəkmir:** "Şimal qonşumuz müttəfiqindən fərqlənmir. Bu da onu göstərir ki, Rusiyada anti-Azərbaycan dairələr var. Onlar gərginliyin daha da artmasına çalışırlar, ticarət dövriyyəsinin əhəmiyyətini vurğulayanlar isə buzların əriməsini istəyirlər. Elə bu günlərdə məlum oldu ki, Rusiya ticarət dövriyyəmizdə dördüncü yerdən üçüncü pilləyə yüksəlib. Yəni münasibətlərin gərgin dövrünə baxmayaraq, iqtisadi əlaqələr, yükdaşımalar inkişafdadır. Sadəcə, Overçuk, Çepa və digərləri günahı daxildə axtarmalıdırlar. Onlar Kreml rəhbərliyinə məruzə etməlidirlər ki, son vaxtlar bir az da sərtləş ritorikanın səbəbləri hansılardır. Məsələn, Solovyov və onun kimi Kreml təbliğatçıları dayanmırlar. Rusiyanın Telegram kanalları susmur. Ona görə də Rusiya rəhbərliyi "dur" əmri verməlidir".

**Ç.Qənizadə Azərbaycanın Ukraynadakı enerji obyektlərinə hücumlardan sonra münasibətlərin daha da pisləşdiyini müşahidə edir**: "Bu problem siyasi rəhbərliklərin danışıqları nəticəsində axarına düşə bilər. İndiki halda, ayrı-ayrı hökumət üzvlərinin təşəbbüsləri ilə məsələnin köklü həllini gözləmirəm. Ola bilsin ki, müəyyən yumşalma olsun, amma fundamental şəkildə yoluna düşməsi üçün dövlət başçılarının dialoqu olmalıdır. Azərbaycan isə tələblərində və tənqidlərində haqlıdır. Rusiya nə zaman yekəxanalığı kənara qoyacaq, vurulan təyyarəyə görə açıq üzrxahlıq edəcək, təzminat ödəyəcək, onda yumşalma qaçılmazdır. Təyyarənin vurulmasının bir ilinə təxminən 4 ay qalıb və Rusiya İstintaq Komitəsindən səs-səmir yoxdur".

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli isə Bakı-Moskva münasibətlərində dərinləşən böhranın bir müddət sonra həll olunacağını gözləyir. Onun bildirdiyinə görə, hazırda qeyri-rəsmi danışıqların getdiyi hiss olunur:** "Rusiya istəyir ki, heç nə olmamış kimi əlaqələr davam etsin. Yəni qaldığımız yerdən münasibətlərimizi inkişaf etdirək. Zaxarova və Peskov bu səbəbdən ehtiyatlı açıqlamalar verir. Ancaq əvvəlki səviyyədə münasibətlər real görünmür. Bəli, böhran aradan qalxacaq, sadəcə, təyyarə vurulana qədər olan əlaqələri görməyəcəyik. Çünki ortalıqda başqa reallıqlar da var - Azərbaycanla Ermənistan sülh sənədini Moskvanın iştirakı olmadan paraflayıb, Zəngəzur dəhlizinin Rusiyanın nəzarətində olmadan açılması razılaşdırılıb...

Bütün bunlar Kremlin Cənubi Qafqazda təsirlərini xeyli dərəcədə azaldan faktorlardır. Overçuk və digər hökumət rəsmiləri isə yeni yaranan bu reallığı dərk etdiklərinə görə iqtisadi sahədə əlaqələrin inkişaf etdirilməsinə çağırırlar. Onlar anlayırlar ki, mövcud vəziyyət bundan ibarətdir, yəni böhranın dərinləşməsi, Azərbaycana təzyiqlərin gücləndirilməsi nəticə verməyəcək. Kremldəki qüvvələr də hökumət kimi praqmatik düşünməyə məhkumdurlar".

❑ **Emìl SALAMOĞLU,**
**"Yenì Müsavat"**




# Aİ kəşfiyyatçıları hələ sərhəddən getmir

## Ermənistan sülh sazişindən sonra da onların saxlanılması modeli haqda düşünür

**Avropa İttifaqı (Aİ) mandatına uyğun olaraq Ermənistanda müşahidə missiyasını davam etdirəcək, hazırda heç bir dəyişikliyə ehtiyac yoxdur. Bunu Aİ-nin Ermənistandakı səfiri Vasilis Maraqos "AzadlıqRadiosu"na bildirib. O, İrəvanla Bakının sülh sazişini paraflamasından sonra sərhəddə üçüncü qüvvələrin geri çəkilməsinə dair sualı cavablandırıb.**

"Bildiyimə görə, Ermənistan xalqı və hakimiyyəti Avropa İttifaqının Ermənistandakı missiyasını alqışlayır. Missiya fəaliyyətini davam etdirir. Hər hansı dəyişikliyə ehtiyac yaranarsa, bunu üzv dövlətlərimizlə və əlbəttə, Ermənistan hakimiyyəti ilə müzakirə edəcəyik. Ancaq indiki mərhələdə erməni ictimaiyyətini əmin etmək istəyirəm ki, Avropa İttifaqının missiyası mandatına uyğun fəaliyyətini davam etdirəcək", - səfir bildirib.

Saziş Vaşinqtonda paraflanandan sonra hər hansı müzakirə aparılıbmı? Bu sualı cavablandıran Maraqos deyib ki, Aİ missiyası Ermənistan hakimiyyətinin dəvəti ilə ölkədədir və gərəkdiyi müddətdə burada qalacaq: "Bu, sülh və tənzimləmə vasitəsidir. Onu tam dəstəkləyirik".

Sülh müqaviləsinin mətninin razılaşdırılmasından beş ay sonra Ermənistan və Azərbaycan avqustun 8-də Vaşinqtonda saziş paraflayıb. Sənəddə deyilir ki, qarşılıqlı sərhədə hər hansı üçüncü tərəf qüvvələrini yerləşdirməməlidir.

Aİ missiyası Ermənistana 2023-cü ilin fevralında gəlib. Bu ilin yanvarında missiyanın Ermənistanın sərhəd bölgələrində daha iki il - 2027-ci il fevralın 19-dək qalmasına qərar verilib.

Bakı dəfələrlə Aİ-nin Ermənistandakı missiyasını casusluq fəaliyyətində, "binokl diplomatiyası"nda ittiham edib. Aİ missiyası bu ittihamları qətiyyətlə rədd edib.

Yada salaq ki, Ermənistanın Azərbaycanla sərhəd bölgələrində yerləşdirilən Avropa İttifaqı missiyasının fəaliyyəti heç də birmənalı qarşılanmır. Xüsusilə də missiyanın Azərbaycanın razılığı olmadan bölgəyə gəlməsi daha çox etirazlara səbəb olub.

Digər tərəfdən, missiyanın ən ciddi tənqidçisi qismində Rusiya çıxış edib. Belə ki, Kreml rəsmiləri açıqlamalarında Aİ kontingentinin fəaliyyətinin regionda stabilliyi poza biləcəyini tez-tez vurğulayıblar.

Aİ missiyasının tərkibi isə başqa bir müzakirə mövzusudur. Belə ki, onların kəşfiyyat məqsədilə bölgəyə göndərilmiş xüsusi xidmət orqanlarının əməkdaşları olmaları ilə bağlı mətbuatda çoxsaylı iddialar səsləndirilib.

Ermənistan Azərbaycanla sülh sazişi imzalandıqdan sonra da, müşahidəçilərin Ermənistan-Azərbaycan sərhədindən çıxmalı olduğu halda belə, Avropa İttifaqının (Aİ) mülki missiyası ilə əməkdaşlıq etmək niyyətindədir. Bu barədə xarici işlər nazirinin müavini Paruyr Hovhannisyan bildirib.

"Biz Aİ ilə müşahidəçilərin yeni mandatını müzakirə edə bilərik və əməkdaşlıq mütləq sərhəd məsələləri ilə məhdudlaşmamalıdır. Biz Avropa müşahidəçiləri ilə işimizi davam etdirmək üçün düzgün model tapa biləcəyik", - o qeyd edib.

❑ **"Yenì Müsavat"**

## Tiencində görüşmədilər, bəs Pekində?

**Prezident İlham Əliyev və Rusiya dövlət başçısı Vladimir Putin Tiencin şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Dövlət Başçıları Şurasının 25-ci iclası çərçivəsində görüşməyiblər. Sammit artıq başa çatıb. Həm İlham Əliyev, həm də Putin İkinci Dünya müharibəsinin başa çatmasının 80 illiyinə həsr olunmuş tədbirlərdə iştirak etmək üçün Pekinə gediblər.**

Milli Məclisin Azərbaycan-Rusiya Parlamentlərarası İşçi Qrupunun üzvü Azər Badamov Modern.az-a açıqlamasında deyib ki, sammit çərçivəsində görüşün baş tutmaması diqqətçəkən məqamdır. "Paraddan əvvəl liderlərin görüşmək imkanı var. Gərginliyin davam etməsi heç bir tərəfə fayda gətirmir".

Onun sözlərinə görə, siyasi münasibətlərdəki gərginliyə baxmayaraq, iqtisadi əlaqələr davam edir: "Biz bütün qonşularımızla sülh və əməkdaşlıq, qarşılıqlı hörmət və fayda əsasında münasibətləri davam etdirməyi dəstəkləyirik. O cümlədən birinin digərinə üstünlük göstərməsini və hörmətsizlik etməsini qəbul etmirik". Deputat hesab edir ki, münasibətlərin normallaşması üçün Moskva öz ritorikasını dəyişməli və dialoqa hazır olduğunu göstərməlidir: "Əks halda, münasibətlərdəki gərginliyin daha da dərinləşəcəyini düşünürəm".

Xatırladaq ki, AZAL-ın təyyarəsi dekabrın 25-də Qazaxıstanın Aktau şəhəri yaxınlığında baş verib. Təyyarənin göyərtəsində olan 67 nəfərdən 38-i həlak olub, 29 nəfər isə sağ qalıb. İlkin məlumatlara görə, təyyarə Rusiyanın Qroznı üzərindəki hava məkanında baş verən fiziki və texniki xarici müdaxilə nəticəsində qəzaya uğrayıb. Rəsmi Bakı dəfələrlə Rusiyanı faktı qəbul etməyə, üzr istəməyə və təzminat ödəməyə çağırıb. Ancaq görünür, Rusiya bunu istəmir və ölkədəki azərbaycanlılara qarşı təzyiqləri davam etdirərək münasibətləri daha da gərginləşdirib.



Ehsan Movahedian

## Anti-Azərbaycan tədbirində ABŞ-ni hədələdi

**"ABŞ Zəngəzur dəhlizi ilə bağlı hansısa addımlar atmağa çalışsa, İran buna cavab verəcək".**

"Teleqraf" xəbər verir ki, bunu iranlı politoloq Ehsan Movahedian deyib.

"İran və Ermənistan təbii qonşulardır. Əgər Ermənistanın təhlükəsizlik məsələlərində problemləri varsa, İran müəyyən təhlükəsizlik təminatları verə bilər", - o qeyd edib.

Movahedian ABŞ-nin Zəngəzur dəhlizinə mümkün nəzarəti ilə bağlı söyləyib: "ABŞ əlavə addımlar atmağa çalışsa, İran buna cavab verəcək".

Qeyd edək ki, iranlı politoloq bu fikirləri İrəvanda "Artsax: həll olunmamış münaqişə, qayıdış hüququ" adlı təxribatçı, Azərbaycan əleyhinə yönəlmiş bədnam tədbirdən sonra jurnalistlərə açıqlamasında səsləndirib. Tədbir Ermənistandakı revanşist dairələr və separatçılar tərəfindən təşkil olunub.

# Bir sammitin ortaya çıxardığı gerçəklər

## Azərbaycanla Çin arasında imzalanmış sazişlər iki ölkənin münasibətlərini strateji tərəfdaşlıq səviyyəsinə qaldırıb



**Çində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının növbəti sammiti başa çatdı. Bu sammit təşkilatın indiyə qədərki ən böyük tədbiri idi. Sammitdə 20-dən çox ölkənin, o cümlədən təşkilatın 10 üzvü, 2 müşahidəçisi, 14 dialoq ortağı olan ölkələrin rəhbərləri iştirak etdi.**

Heç şübhəsiz ki, sammitdə əsas diqqətlər bir sıra ölkələrin rəhbərlərinə yönəlmişdi. O sırada isə Azərbaycan Prezidenti İlham Əliyev öndə gəlirdi. Xüsusilə 8 avqustda Vaşinqtonda əldə olunan paraflanma sənədindən sonra Azərbaycan və Ermənistan rəhbərləri ilk belə böyük tədbirdə iştirak edirdilər. Onların xanımları ilə birlikdə etdikləri ayaqüstü söhbət diqqətləri çəkdi. Sonra isə ölkə başçısı ilə erməni baş nazir arasında bir görüş də baş tutdu. Məhz bu görüşdən sonra da ATƏT-in Minsk Qrupunun rəsmi şəkildə buraxıldığı bəyan edildi.

Heç şübhəsiz ki, son aylardakı gərginliklər fonunda Azərbaycan və Rusiya prezidentlərinin görüşünün baş tutub-tutmayacağı əsas müzakirələr sırasında idi. Lakin sammitin keçirildiyi günlərdə ayaqüstü olsa belə, bu görüş olmadı. Bu da özü ilə yeni müzakirələr yaratdı.

Prezidentin sammitdəki çıxışı da diqqətlə izlənildi. İ.Əliyev çıxışında daha çox Azərbaycan-Çin əlaqələrinə diqqət ayırdı. Ölkə başçısı Azərbaycanın regionda Çinin etibarlı tərəfdaşı olduğunu qeyd etdi. İ.Əliyev bildirib ki, bu il Çinə dövlət səfəri zamanı hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin təsis edilməsi barədə birgə bəyanat imzalanıb və bu tarixi hadisə Azərbaycan-Çin münasibətlərində yeni bir səhifə açıb.

Azərbaycan Prezidentinin son zamanların əsas müzakirə mövzularından birinə çevrilən Zəngəzur dəhlizi barədə dedikləri də xüsusi diqqət çəkib. **Sitat:** "Yaxın gələcəkdə Zəngəzur dəhlizi həm Orta Dəhlizin, həm də Şimal-Cənub dəhlizinin növbəti mühüm seqmentinə çevriləcək, sülhü, çoxtərəfli tərəfdaşlığı möhkəmləndirəcək. Zəngəzur dəhlizi Azərbaycan sərhədinin şərqində, qərbində, şimalında və cənubunda yerləşən yaxın və uzaq qonşularımıza fayda gətirəcək".

Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri və Prezidentin köməkçisi Hikmət Hacıyev görüşün nəticələrini "səmərəli" adlandırıb. Onun sözlərinə görə, Azərbaycan və Çin arasında hərtərəfli strateji tərəfdaşlıq mövcuddur və bu əlaqələr dinamik şəkildə inkişaf edir.

Hikmət Hacıyev bildirib ki, iki ölkə beynəlxalq təşkilatlarda bir-birinə dəstək göstərir, terrorizm, ekstremizm və separatizm kimi "üç bəlaya" qarşı mübarizədə tərəfdaşlıq edir. O vurğulayıb ki, Azərbaycan və Çin dövlətlərin daxili işlərinə qarışmamaq prinsipinə sadiqdir və hər bir ölkənin iqtisadi inkişaf modelini seçmək hüququna hörmət edir.

**Milli Məclisin deputatı Azər Badamov dedi ki, Prezidentin ŞƏT+ formatında keçirilən 24-cü Zirvə toplantısında etdiyi çıxışa ilk növbədə Azərbaycan-Çin münasibətlərindən başlaması xüsusi əhəmiyyət daşıyır. Çünki bu, Azərbaycanın dünyanın ikinci iqtisadiyyatı, Qlobal Cənubun birinci dövləti ilə dostluq və strateji tərəfdaşlıq münasibətlərinə malik olduğumuzun dünyaya mesajıdır:** "Dövlət başçımız Çinin irəli sürdüyü bütün qlobal təşəbbüsləri dəstəklədiyini bildirdi. Çinin təşəbbüsləri BMT Nizamnaməsi və beynəlxalq hüquqa hörmət əsasında beynəlxalq münasibətlərin yaxşılaşdırılmasına yönəlmiş mühüm və vaxtında atılmış addımlardır. Çin dünyanın ən güclü dövlətlərinin zirvəsində dayanmasına baxmayaraq bəzilərindən fərqli olaraq özünü üstün tutmur və münasibətləri qarşılıqlı hörmət və ədalət prinsipləri üzərində qurur.

Dövlət başçımızın çıxışında "Azərbaycan regionda Çinin etibarlı tərəfdaşıdır" deməsi əlbəttə ki, yaratdığımız yeni reallıqla regionumuzun təhlükəsizliyinin yeni arxitekturasını yaratmaqla Çinin qlobal təşəbbüslərini reallıqda dəstəkləyir. Azərbaycan Çinin irəli sürdüyü "Bir kəmər, bir yol" layihəsini dəstəkləyərək real töhfələr verən ilk ölkədir. Bu baxımdan dövlət başçımızın çıxışında Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin beynəlxalq tranzit dəhlizlərin ərsəyə gəlməsinə verdiyimiz töhfələr və Orta dəhlizin genişləndirilməsi istiqamətində atdığımız davamlı addımlarımız haqqında məlumatın verilməsi ŞƏT+ ölkələrin rəhbərlərinin logistik potensialımıza diqqətinin çəkilməsidir. Azərbaycanın Bakı Beynəlxalq Ticarət Limanının yükaşırma gücünü 15 milyon tondan 25 milyon tona, Bakı-Tiflis-Qars dəmir yolunun yük keçirmə gücünü 1 milyon tondan 5 milyon tona artırması Orta dəhlizə beynəlxalq marağı artırıb və daşımalardakı 90% artım bunu bir daha təsdiq edir. Zəngəzur dəhlizinin açılması Orta dəhlizin bir seqmenti olaraq əlavə 15 milyon tondan çox beynəlxalq tranzit yük daşıma imkanını ərsəyə gətirəcək və bu da Asiyadan Avropaya qədər böyük bir coğrafiya üçün daha səmərəli daşıma imkanlarının yaranması deməkdir.

Prezident İlham Əliyevin Çin Xalq Respublikasına səfəri Azərbaycan-Çin münasibətlərində mühüm bir mərhələnin başlanğıcı kimi qiymətləndirilir. Tiencində keçirilən görüşdə Prezident İlham Əliyevlə Çin Xalq Respublikasının Sədri Si Cinpin arasında aparılan danışıqlar həm siyasi, həm də iqtisadi baxımdan əhəmiyyətli nəticələrdən soraq verir. Azərbaycanla Çin arasında imzalanmış sazişlər iki ölkənin münasibətlərini strateji tərəfdaşlıq səviyyəsinə qaldırır. Yaxın gələcəkdə Azərbaycanın Çinlə yeni strateji iqtisadi əlaqələr quracağına indi heç kim şübhə ilə yanaşmır. Çünki iki dövlət arasındakı ticari-iqtisadi əlaqələrin bugünkü səviyyəsi, əlaqələrin yüksələn xətlə sürətli inkişafı bunu deməyə əsas verir".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

## Pakistan-Ermənistan razılaşmasına İrandan mövqe

**"İran Pakistan və Ermənistan arasında diplomatik münasibətlərin qurulmasını alqışlayır". Bunu İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Bəqayi deyib.**

"Bizim Pakistan və Ermənistanla yaxşı münasibətlərimiz var və bu inkişafı müsbət qiymətləndiririk. Ümid edirik ki, iki qonşumuz arasında əlaqələrin qurulması region ölkələrini gücləndirəcək", - diplomat bildirib.

Xatırladaq ki, avqustun 29-da Ermənistan xarici işlər naziri Ararat Mirzoyan bundan əvvəl Pakistan baş nazirinin müavini və xarici işlər naziri İshaq Dar ilə telefon danışığı aparıb. Danışıqlar zamanı iki ölkə arasında diplomatik münasibətlərin qurulması məsələsini müzakirə etmək barədə razılaşma əldə olunub.

Avqustun 31-də Çin Tiancin şəhərində görüşən nazirlər birgə kommünike imzalayıblar.



İsmayıl Bəqayi

YENİ MÜSAVAT
N 156 (8766) 3 sentyabr 2025

# ŞƏT anti-Qərb təşkilatına çevrilərsə... - Bakının mövqeyi

## Çin və əsas tərəfdaşları bu təşkilat vasitəsilə birqütblü dünyanı ortadan qaldırmağa çalışır; analitiklərə görə, bu, bizim məsələ deyil, ölkəmizin iki hədəfi var

**Çinin Tiencin şəhərində Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) üzv ölkələrin Dövlət Başçıları Şurasının iclasında bir sıra mühüm qərarlar qəbul edilib. Onların arasında Tiencinn Bəyannaməsi və 2035-ci ilə qədər ŞƏT-in İnkişaf Strategiyası da var.**

"Yeni Müsavat" xatırladır ki, Çin Xalq Respublikasının Sədri Si Cinpin Azərbaycanın ŞƏT-ə üzv olmasını dəstəklədiyini bəyan edib. Si Cinpin bu fikri Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşü zamanı səsləndirib.

"Çin Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatına üzvlüyünü dəstəkləyir və çoxtərəfli əsasda onunla sıx əməkdaşlıq etməyə, Qlobal Cənubun ümumi maraqlarını qorumağa və ortaq taleyə malik cəmiyyətin formalaşdırılmasına töhfə verməyə hazırdır".



O əlavə edib ki, Çin Azərbaycanla ikitərəfli əməkdaşlığın dinamik inkişafını qoruyub saxlamaq və bu istiqamətdə işləri davam etdirmək niyyətindədir. ŞƏT-in iclasında "müşahidəçi" və "dialoq tərəfdaşı" statuslarını birləşdirmək qərarı verilib. Üzv dövlətlər "müşahidəçi" və "dialoq üzrə tərəfdaş" statuslarını vahid "ŞƏT tərəfdaşı" statusunda birləşdirib.

Yekun sənəddə deyilir ki, ŞƏT-ə üzv dövlətlər Laosa dialoq üzrə tərəfdaş statusunun verilməsi qərarını məmnunluqla qeyd ediblər. Hazırda ŞƏT-ə on dövlət daxildir: Belarus, Hindistan, İran, Qazaxıstan, Qırğızıstan, Çin, Pakistan, Rusiya, Tacikistan və Özbəkistan. İndiyədək müşahidəçi statusuna malik iki dövlət vardı - Əfqanıstan və Monqolustan. Dialoq üzrə isə tərəfdaş statusuna malik on dörd ölkə, o cümlədən Azərbaycan, Ermənistan, Bəhreyn, Misir, Kamboca, Qətər, Küveyt, Maldiv, Myanma, Nepal, BƏƏ, Səudiyyə Ərəbistanı, Türkiyə və Şri-Lankadır. Yeni dəyişiklikdən sonra Azərbaycan "ŞƏT tərəfdaşı" statusu aldı. Ekspertlərin fikrincə, ŞƏT-in hazırkı sammiti əsaslı geosiyasi dəyişikliklərin simvollarından birinə çevriləcək. Analitiklər hesab edirlər ki, bu sammit beynəlxalq münasibətlər sisteminin transformasiyasını sürətləndirməyə qadirdir. Ekspert qeyd edir ki, ŞƏT-i cəlbedici edən təşkilatın qarşılıqlı hörmət və daxili işlərə qarışmamaq prinsiplərinə əsaslanan alternativ əməkdaşlıq modelidir. Ev sahibi ölkənin məlumatına görə, hazırkı sammit təşkilat yarandandan bəri ən böyük sammit idi.

Qərb mediası sammitə narahat reaksiya verib. Məsələn, "Reuters" xatırladır ki, son illərdə ŞƏT-in daimi üzvlərinin sayı 10-a, müşahidəçilərin və dialoq üzrə tərəfdaşların sayı isə 16-ya çatıb. Eyni zamanda təşkilatın səlahiyyətləri təhlükəsizlik məsələlərindən, terrorizmlə mübarizədən iqtisadi və hərbi əməkdaşlığa qədər genişlənib.

Rusiya Xarici İşlər Nazirliyinin Beynəlxalq Münasibətlər Mərkəzinin rəhbəri Vadim Kozyulinin RT-yə verdiyi şərhdə dediyi kimi, ŞƏT sammiti "qlobal idarəetmənin alternativ mərkəzlərinin" formalaşmasına şərait yaratdığına görə Qərbdə müəyyən təşviş yaradır. "Mövcud tendensiyalar belə qənaətə gəlməyə imkan verir ki, Qərb strukturlarının dünya düzəninə təsirləri qaçılmaz olaraq azalacaq. ŞƏT-in inkişafı isə buna böyük ölçüdə kömək edəcək. ŞƏT və BRİKS ölkələri nə qədər güclü olarsa, heç bir ölkənin özbaşına şərtləri diktə edə bilməyəcəyi balanslaşdırılmış sistem bir o qədər tez formalaşacaq", - Kozyulin vurğulayıb.

**ReAl Partiyasının sədri Natiq Cəfərlinin fikrincə, Çində baş tutan sammit, görüşlərin və müzakirələrin səviyyəsi, verilən bəyanatlar bir daha onu sübut etdi ki, Qərb, əsasən də Avropa öz hegemonluğunu, mənəvi, maddi, texnoloji və elmi üstünlüyünü itirir. Partiya sədri hesab edir ki, günah özlərindədir:** "Son 30 ildə Avropa "SSRİ"ləşdikcə, Çin, Hindistan, İndoneziya, Vyetnam və s. ölkələr iqtisadi anlamda "Qərbləşdilər" və bu proses orqanik, Qərbin səhvlərini təkrar etməyərək baş verdi.

Avropa ifrat tənzimləmə qanunları, iqtisadiyyatda maneələr yaratmaqla öz üstünlüyünü xərcləyib bitirdi. Bu gün, məsələn, Avropada tikintiyə icazə aylar çəkir, Çində 3 günə həll olunur, Avropada restoran açmaq üçün əvvəl milli qanunvericilikdəki maneələri, sonra da Avropa Birliyinin requlyativ, tənzimləyici məhdudiyyətlərini aşmaq lazım olur, amma məsələn, Laosda bu məsələ 1 günə həllini tapır. Bu gün Avropa ölkələri turizmlə mübarizə aparır, hər gün daha çox məhdudiyyətlər qoyur, amma, məsələn, Səudiyyə Ərəbistanı kimi qapalı ölkə qapılarını turistlər üçün daha çox açır. Ümumiyyətlə, Avropa iqtisadiyyatı daralır, Şərqdə, Sakit okean hövzəsində yerləşən ölkələrdə iqtisadi artımın tempi göz qamaşdırır. Qərbin ümidi yenə ABŞ-dir".

**Analitik Elxan Şahinoğlu isə o qənaətdədir ki, Rusiya və Çin Şanxay Əməkdaşlıq Təşkilatı, BRİCS vasitəsilə birqütblü dünyanı ortadan qaldırmağa çalışır:** "Bu bizim məsələ deyil. Azərbaycanın bu təşkilata marağı iqtisadi və ticarət əlaqələrinin gücləndirilməsi, üzv ölkələrin Azərbaycanın nəqliyyat imkanlarından istifadəsini təmin etməklə əlaqəlidir".

**E.Şahinoğlunun sözlərinə görə, Çin və Rusiya birqütblü dünyanın başa çatmasını istəyirlər:** "Amma həm də başqa hədəflər də var - iqtisadi əməkdaşlıq, logistika və sair.

Azərbaycana gəldikdə, Mərkəzi Asiya ilə əməkdaşlığımızı gücləndirməliyik. Eyni zamanda Prezidentin Çinə səfəri və ŞƏT-ə marağı Rusiyaya da mesaj olmalıdır. Moskva görməlidir ki, sən bizimlə yuxarıdan aşağı davranmağa çalışırsan, amma ən yaxın tərəfdaşın Çin Azərbaycanla əlaqələr qurur. Çin Rusiya kimi kobud addımlar atmır, ona görə bu ölkə ilə əməkdaşlıq cəlbedicidir".

Siyasi təhlilçi Aqşin Kərimov daha çox Çinin qlobal siyasətdə yüksəlişinə diqqət çəkir. Onun sözlərinə görə, Çinin reaktiv templə dünya olimpinin zirvəsinə qalxmaq səyləri güc mərkəzləri arasındakı strateji sərhədləri dəyişdirir. Beynəlxalq səviyyədə Rusiya və ABŞ-nin öz mövqelərini itirmədən Çinin yüksəlişi başqa bir istiqamətə doğru gedir. Strateji hüdudların yeni dizaynı qaçılmazdır və bu, baş verəcəyi təqdirdə İkinci Dünya müharibəsindən sonra formalaşmış münasibətlər sisteminə meydan oxuyacaq fərqli tərzlər meydana çıxacaq. Rusiya-Ukrayna müharibəsi, Yaxın Şərqdəki geosiyasi landşaftın dəyişdirilməsi, 12 günlük İsrail-İran müharibəsinin çox geniş geostrateji konteksti perspektiv üçün həmin münasibətlərə dair təsəvvürlərin yaradılmasına doğru bir gedişlərdir. Azərbaycan isə bu gedişləri Ermənistanla münasibətlər kontekstində regional müharibəyə çevirmək istəməyərək daha fərqli dizayna üstünlük verdi".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

## Trampa üçlü mesaj

### Qərb nəşrləri yazır ki, hər üç dövlət arasında ciddi fikir ayrılıqları var

**Çin, Rusiya və Hindistan liderləri regional sammitdə əl-ələ tutaraq əməkdaşlıq edəcəklərinə söz veriblər. Bu, qismən də olsa ABŞ Prezidenti Donald Trampa qarşı yönəlmiş birlik nümayişi kimi qiymətləndirilir.**

Bu barədə "The Wall Street Journal" məlumat yayıb. Məqalədə bildirilir ki, İran, Pakistan, Türkiyə, Belarus, Mərkəzi Asiya və Qafqaz ölkələrinin liderlərinin də iştirak etdiyi Çinin Tiencin şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) sammitində ciddi qərarlar qəbul olunmayıb.

"Amma Çin lideri, Hindistanın baş naziri və Rusiya prezidentinin bir-birini qucaqlayaraq nümayiş etdirdiyi diqqətlə düşünülmüş görüntülər Vaşinqtona güclü siqnal oldu. Çünki Tramp Pekini cilovlamağa, Rusiyanı Çindən ayırmağa və Hindistanı Rusiya neftindən uzaqlaşdırmağa çalışır", - WSJ yazır.

Çin, Rusiya və Hindistan liderləri ümid edirlər ki, onların ŞƏT sammitində görüşləri birlik nümayiş etdirəcək və yeni dünya nizamının yaradılmasına kömək edəcək. Bu barədə isə "Sky News" yazır. Nəşrin yazdığına görə, sözügedən liderlər ABŞ hegemonluğuna alternativ təklif etmək istəyirlər. "Donald Trampın köhnə dünya nizamını məhv etdiyini nəzərə alaraq, onların vaxtının yetişdiyinə inanırlar", - məqalədə deyilir.

Xüsusən də Rusiya Prezidenti Vladimir Putin ümid edir ki, ŞƏT sammiti Rusiyanı dünyanın gözü qarşısında Çinlə eyni səviyyəyə qaldıracaq, bu da öz növbəsində Ukraynadakı müharibəyə haqq qazandıracaq və onun ölkə daxilində mövqelərini möhkəmləndirəcək. Lakin məqalə müəlliflərinin fikrincə, reallıqda Rusiya Çinin vassal dövlətinə çevrilir, çünki ölkələr arasında ticarətin böyük hissəsi Çinin şərtləri əsasında həyata keçirilir. Çin Rusiya neftini ona görə ucuz qiymətə alır ki, sanksiyalar Putinin nefti başqa ölkələrə satmasına mane olur və bunun müqabilində Rusiya çoxlu Çin malları alır. Çin lideri Si Cinpin deyir ki, Pekin, Moskva və Yeni Dehli özlərini "rəqib yox, tərəfdaş" kimi görməlidirlər, lakin Hindistanın baş naziri Narendra Modi bilir ki, iki ölkə arasında iqtisadi mübahisələr və sərhəd münaqişələri bütün bunları pozur. Çin və Rusiya arasında Şimali Koreya ilə bağlı gərginlik də var, çünki Çin ərazini "özününki" hesab etsə də, Putin Kim Çen Inla yaxınlaşır.

"Deməli, bu üç ölkə arasında dostluq o qədər də mükəmməl deyil - orada ABŞ-ın kompetent administrasiyasının istifadə edə biləcəyi çatlar var", - məqalə müəllifləri qeyd edirlər.

YENİ MÜSAVAT
N 156 (8766) 3 sentyabr 2025



# Yiyəsiz qalmış işgəncələr

Zamin HACI
zaminhaci@gmail.com

**Bugünlərdə suda batanlarla bağlı hansısa xəbəri oxuyanda orada ekspert qismində şəkli verilən dövlət məmuru, daha dəqiqi, onun yaxasındakı fərqlənmə nişanı (şevron) diqqətimi çəkdi. Həmin parçanın üzərində "FHNKGNSXDX" hərfləri həkk edilmişdi.**

İlk baxışdan, belə düşünmək olardı ki, artıq ölkəmizdə dahi ingilis yazıçısı Conatan Sviftin əsərlərinin tətbiqinə başlanmışdır. Çünki onun "Qulliverin səyahəti" romanında bölümlərdən biri quiqnqnm-ların ölkəsində cərəyan edirdi. Həmin quiqnqmlar şüurlu atlardan ibarət idi, insanabənzər məxuqlar isə yehu adlanırdı, şüursuz varlıqlardı. İstər-istəməz, "fhnkgnsxdx" söz birləşməsi elə təsəvvür yaradırdı ki, bunu hansısa at səsləndirir. Bir növ fınxırmaq kimi. Ancaq informasiyada, yuxarıda yazdığım kimi, bəni-insan - dövlət məmurunun fotosu verilmişdi. Qətiyyən ata oxşamırdı.

İkinci versiya olaraq ağlıma klinqonlar gəldi. Bilənlər bilir, klinqonlar "Star trek" - "Ulduz yolu" serialında fantastik uzaylı varlıqların, bir növ kosmik xalqın adıdır. İşbaz amerikalı kino sənayeçiləri klinqonlar üçün ayrıca əlifba, dil düzəldiblər, hətta bu dildə opera belə yazıblar. Misal üçün, klinqonlar guya özlərini "tlhIngan Hol" adlandırır. Etiraf edin ki, bizim lövhəcikdəki "fhnkgnsxdx" leksikası, orfoqrafiyası, canım sənə desin, orfoepiyası-zadı-filanı-şeyi baxımından çox oxşardır.

Nəhayət, insanın ağlına gəlir ki, bəlkə bu bir zarafatdır, kimsə kompüter klaviaturasındakı standart latın əlifbasını ardıcıl düzülüşlə basıb və "ASDFGHJK"-ya oxşar yeni idarə adı kəşf edibdir. Həyatdır. Hər şey ola bilər. Üstəlik, iqtisadiyyatımız güclüdür...

Ancaq əziz oxucuları bezdirdiyim bəsdir, onlara bu yay günündə çox əziyyət və işgəncə vermədən şevronun sirrini açıram. Bu, sən demə, "Fövqəladə Hallar Nazirliyi Kiçik Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti"nin abbreviaturası, türkün sözü, qısaltması imiş!

Möhtəşəmdir. Ana dilimiz bu cür inkişaf edir. Yəqin ki, böyük gəmilərə nəzarət idarəsi də ayrıdır. Ancaq niyə "sularda" yazıblar, başa düşmədim. Cəm şəklində vacib deyil. "Suda" bəs edir. Əlbəttə, "sular" daha romantik səslənir, buna söz yoxdur. Şair bu məqamda görək nə demişdir: "İçmək istər bülbülün qanın, məgər bir rəng ilə, Gül butağının mizacına girə, qurtarə su". Uşaqlarınıza belə qəzəl-qəsidələrdən öyrədin, ləzzət alsınlar.

Hərçənd həyatımızda bayaq yazdığım kimi, işgəncəli hallar nəsə son zamanlar artmaqdadır. Bilmirsən səbəb nədir. Bu cür gözəl yaşayış, dinc şərait, insan hüquqları, söz azadlığı, uşaq pulu, tramvay xətti, metronun qəhvə(yi) xətti, canım sənə desin, müasir parklar və işıq dirəkləri quraşdırılır, lakin davamlı olaraq işgəncə xəbərləri alırıq. Ata uşağa işgəncə verdi, ana körpəni çimdiklədi, qardaş bacısını buynuzladı, nə bilim, gəlin qayınananın dırnağını çəkdi, baldız bacanağa mıx soxdu və sairə. Nə olub? Niyə işgəncəyə meyllənirik? Adamın ürəyi ağrıyır. Səmimi sözümdür. Haçan baxsan hər gün azı 1 işgəncə xəbəri gəlir, saytlar blurlanmış (bulanıqlaşdırılmış) fotolarla aşıb-daşır.

Mən bu barədə çox düşündüm, ağlıma belə bir versiya gəldi ki, işgəncələr üzrə milli komitəmizin müdiri Elçin Behbudov 2015-ci ildə rəhmətə gedəndən sonra sahəyə nəzarət zəifləmişdir. 10 ildir işgəncələr yiyəsiz qalmışdır. Bəlkə də kiməsə tapşırılıb, ancaq vəzifəsinin öhdəsindən Elçin müəllim qədər gələ bilmir. Rəhmətlik elə güclü adam idi ki, bütün ölkəyə töycü kəsən MTN-dən, şəxsən Eldar müəllimdən aylıq 2 min manat "vergi" aldığı ortaya çıxmışdı. Elçin müəllimin quruca adı bəs eləyirdi, işgəncə vermək istəyənlər dərhal özünü yığışdırırdı.

Allah heç kəsi, heç sahəni yiyəsiz qoymasın.





# Modi qisasçı Qabbar Sinqx rolunda

## Nyu-Dehlinin bu qərarı Azərbaycanla Pakistanı daha da yaxınlaşdırır; Hindistan bilməli idi ki, Azərbaycanın dostları...

**Hindistan bir daha Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) üzv olmaq üçün verdiyi müraciəti bloklayıb. Bakıdan da bu hadisəyə münasibət bildirilib. Vurğulanıb ki, Hindistanın sözügedən qərarı Nyu-Dehlinin uzaqgörən olmayan siyasətini əks etdirir və məlumatlı mənbələrin fikrincə, bu addım Hindistanın Pakistanla münasibətləri fonunda atılıb.**

Eyni zamanda Çinin Tiencin şəhərində Prezident İlham Əliyevin Pakistanın baş naziri Məhəmməd Şahbaz Şəriflə görüşündə bu mövzuya toxunulub. Baş nazir Hindistanın Pakistana qarşı hərbi təcavüzü zamanı Azərbaycanın göstərdiyi siyasi dəstəyə və həmrəyliyə görə bir daha təşəkkürünü bildirib.

Prezident deyib ki, ölkəmizin Pakistana göstərdiyi dəstəyə cavab olaraq Hindistan beynəlxalq təşkilatlarda Azərbaycandan qisas almağa çalışır. Bunun ölkəmiz üçün heç bir əhəmiyyət daşımadığını vurğulayan dövlət başçısı qeyd edib ki, Azərbaycan üçün qardaşlıq münasibətləri hər şeydən üstündür.

Atom silahına malik Hindistanın Azərbaycana münasibətdə Bollivud istehsalı olan filmdəki Qabbar Sinqx kimi qisasçı hisslərlə yaşaması üzücüdür. Prezident də deyib ki, Hindistanın anti-Azərbaycan mövqeyi ölkəmiz üçün heç bir əhəmiyyət daşımır.

**AMİP Ali Məclisinin sədri, politoloq Rəşad Bayramov "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, Hindistanın atdığı bu addım çoxtərəfli diplomatiya və "Şanxay ruhu" prinsiplərinə ziddir:** "Şübhəsiz ki, Hindistanın Azərbaycana qarşı mövqeyində ölkəmizin Pakistanla olan münasibətləri əhəmiyyətli rol oynayır. Kəşmir məsələsində Pakistanın haqlı mövqeyini dəstəkləyən Azərbaycana qarşı artıq neçə vaxtdır ki, həm gizli, həm də açıq müstəvidə mübarizə aparan Nyu-Dehlinin Ermənistanı dəstəkləməsi, onlara silah-sursat ötürməsi və ən nəhayət, ölkəmizin növbəti dəfə ŞƏT üzvlüyünə veto qoyması bunun bariz sübutudur.

Pakistanla Hindistan arasında son hərbi qarşıdurmada ölkəmizin Pakistana verdiyi mənəvi-siyasi dəstək isə Hindistanı daha da qıcıqlandırıb. Amma məsələ burasındadır ki, Hindistanın bu qisasçı mövqeni ŞƏT platformasına daşıması təkcə Azərbaycanın yox, eləcə də müttəfiq hesab etdiyi Ermənistanın, Azərbaycanın təşkilata üzvlüyündən faydalanacaq ŞƏT üzvü ölkələrin və o cümlədən də Hindistanın özünün maraqlarına zərbə vurur. Belə ki, dünyada məsuliyyətli və etibarlı tərəfdaş kimi tanınan, regional liderliyini hər keçən gün daha da möhkəmləndirən və qlobal aləmdə regionun əsas aparıcı aktoru qismində çıxış edən ölkəmizin ŞƏT-ə üzvlüyü hər kəs üçün, o cümlədən də Hindistanın özü üçün əlavə dividentlər qazandıra bilər.

Ölkəmizin beynəlxalq nəqliyyat dəhlizlərinin üzərində yerləşməsi, Şərq-Qərb dəhlizi ilə yanaşı, Rusiya, İran və Hindistan tərəfindən əsası qoyulmuş Şimal-Cənub nəqliyyat dəhlizinin də ərazimizdən keçməsi əslində Hindistanı ağılla düşünüb məntiqli qərar verməyə sövq etməli idi. Digər tərəfdən, Ermənistanın təşkilatda üzvlüyünü istəyən Hindistan Azərbaycanın üzvlüyünə veto qoyarkən ölkəmizin müttəfiqləri tərəfindən Ermənistanın da üzvlüyünün bloklanacağını bilməli idi. Amma Hindistan əks yol tutmağa üstünlük verdi və bununla da ümumilkdə ŞƏT-in maraqlarının ziddinə addım atdı.

Hindistanın bu qərarı çoxtərəfli diplomatiya və "Şanxay ruhu" prinsiplərinə ziddir. Çünki bu prinsiplər ikitərəfli mübahisələrin çoxtərəfli platformalara köçürülməsinin yolverilməzliyini nəzərdə tutur.

Şübhəsiz ki, bu qərar Azərbaycanın Hindistan xaric ŞƏT üzvləri və tərəfdaşları ilə münasibətlərinə hər hansı təsir göstərməyəcək. Biz ŞƏT üzvü olan əksər ölkələrlə əlaqələri siyasi, iqtisadi, ticarət çərçivəsində olduqca yaxşı ikitərəfli münasibətlərə malik ölkəyik. Bu qərarın Azərbaycan-Pakistan münasibətlərinə də hər hansı təsiri olmayacağı məlumdur. Əksinə, Hindistanın bu davranışı Azərbaycan və Pakistan arasında onsuz da kifayət qədər yaxşı olan münasibətləri daha da möhkəmləndirəcək. Odur ki, ölkə başçısının da dediyi kimi, Hindistanın anti-Azərbaycan mövqeyi ölkəmiz üçün heç bir əhəmiyyət daşımır".

**ƏHD Partiyasının baş katibi, politoloq Niyaməddin Orduxanlı Hindistanın bütün cəhdlərinə baxmayaraq, Azərbaycanın daim Pakistanın yanında duracağını qeyd etdi:** "Bu məsələ ilə bağlı partiyamızın mövqeyi açıq və aydındır. Hindistan Azərbaycana öz nifrətini gizlətmir. Təbii ki, bu nifrətin əsasında Azərbaycanın Pakistana olan dost və qardaş münasibəti durur. Hindistan dost olmayan ölkədir. Biz qardaş Pakistanın haqlı mövqeyini həmişə dəstəkləyəcəyik. BRİCS-dən imtina etdiyimiz kimi, ŞƏT-dən də imtina etməli, bizimlə dost olmaq istəyən ölkələrlə ikitərəfli əməkdaşlığı genişləndirməliyik. Türkiyə ilə, o cümlədən yaxın qonşularla 3+3 formatında əməkdaşlıq genişləndirilməli, kapitalın, malların və işçi qüvvəsinin hərəkəti asanlaşdırılmalıdır. İqtisadi bloklara qoşulmaq bizə ona görə lazımdır ki, ölkəmizə investisiya qoyulsun, iqtisadiyyatımız inkişaf etsin, xaricə məhsul sataq. İxracımızın 90%-ə qədərini neft və neft məhsulları təşkil edir. Satacağımız başqa məhsulumuz da çox deyil. Biz islahatlar aparmaqla iqtisadiyyatımızı gücləndirməliyik. Quru sərhədlərimizi açmaqla turizmin inkişafına imkan yaratmalıyıq. Ümumi Daxili Məhsulun həcmini artırmaq üçün kompleks islahatlar aparılmalıdır. Dövlət idarəetməsini həyata keçirmək üçün bürokratik aparat kiçildilməli, idarəetmədə ifrat mərkəzləşməyə son qoyulmalı, istehsal və emal müəssisələrinin yaradılması üçün tikintiyə icazə olduqca sadələşdirilməli, bu səlahiyyət yerli özünüidarəetmə orqanlarına verilməli, mülkiyyəti qoruya bilən məhkəmə yaradılmalı, əlverişli investisiya mühiti yaradılmalı, parlamentdə qanunların icrasına nəzarət mexanizmi yaradılmalıdır. Regionda mövqelərimizin güclənməsi üçün Ermənistanı yaxın tərəfdaşlarımızdan birinə çevirməliyik. İranla, İranın indiki prezidenti ilə əlaqələrimizi genişləndirməliyik".

❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"

# "İngilislər Bakıda anti-Rusiya komandası yaradır" yalanı

## Rus mediası britaniyalı nazirin Azərbaycana səfərindən və Prezidentə hədiyyəsindən uzaqgedən nəticələr çıxarıb; şimal qonşumuzda bu isterikanın səbəbi nədir?

**Böyük Britaniyanın Avropa, Şimali Amerika və xarici ərazilər üzrə dövlət naziri Stiven Dotin Bakıya səfəri Rusiya mediasında "bomba partlayışı effekti" verib. Azərbaycan- Böyük Britaniya münasibətlərinin ən yüksək səviyyədə olması yeni fakt deyil. Amma AZAL-ın təyyarəsinin vurulması ilə Azərbaycan-Rusiya münasibətlərində yaranmış gərginlikdən sonra Bakıya hər belə səfərə media xüsusi qıcıqla yanaşır. Stiven Dotin Bakı səfərinə Rusiya mediasında xüsusi diqqətin əsas səbəbi bəllidir. Rusiya ilə Britaniya Krallığı dünya siyasətində ənənəvi rəqibdir. İndi də bu cür səfərləri qısqanclıq və şübhə altına alırlar.**

Məsələn, Rusiya nəşrləri Stiven Dotin Bakı səfərində Prezident İlham Əliyevə İngiltərə futbol yığmasının formasını hədiyyə etməsindən "uzaqgedən nəticələr" çıxarıb. "Svobodnaya pressa" nəşri yazır ki, Rusiyaya qarşı keçirilən "böyük oyun"da britaniyalılar "Qafqaz komandası"na stavka edirlər. O da bildirilir ki, britaniyalı nazir Bakıdan sonra getdiyi İrəvanda Paşinyana heç bir köynək hədiyyə etməyib. "Azərbaycan Prezidentinə üzərində "1" rəqəmi olan köynək verərkən çəkilmiş foto, sadəcə, dostluq jestidir, yoxsa gizli simvolik məna var? London çox məmnundur, çünki köynəyi təhvil verməklə britaniyalı nazir Vaşinqtona, Brüsselə və Moskvaya "İlham Əliyev bizim komandadadır" mesajı ünvanlayır".



Azərbaycana qarşı həmişə qərəzli mövqeyi ilə seçilən politoloq Oleq Belikov açıqlamasında daha da irəli gedərək deyib ki, "Azərbaycan Rusiyaya hücum etməli olan dövlətlər klubuna" qəbul edilir". O da xüsusi vurğulanır ki, Britaniyanın əsas məqsədi Rusiyanın enerji resurslarına zərbə vurmaqdır. "Mahiyyət etibarı ilə ingilis nazir Bakıya Rusiyaya zərbə endirmək planını gətirmişdi. Rusiya neftinə yeni sanksiyalar tətbiq edən Böyük Britaniya özü də üçüncü ölkələr vasitəsilə əsas alıcı olaraq qalır. Böyük Britaniyada "Lindsey" neft emalı zavodunun bağlanmasını nəzərə alsaq, Bakı London tərəfindən ideal mənbə kimi qəbul edilir. Əgər Azərbaycan enerji axınını Londonun iştahını ödəməyə yönəltsə, bu, birbaşa Rusiya büdcəsinə maliyyə zərbəsi vurmuş olacaq".

84 milyard funt sterlinqdən artıq sərmayə ilə Böyük Britaniya Azərbaycanın ən böyük xarici investoru olaraq qalır. Azərbaycanın Böyük Britaniyaya yatırımları artıq 2 milyard dolları ötüb. Hazırda 500-dən çox Britaniya şirkəti Azərbaycanda fəaliyyət göstərir. Onların fəaliyyəti infrastrukturdan tutmuş səhiyyə və kənd təsərrüfatına qədər müxtəlif sahələri əhatə edir. Böyük Britaniya mürəkkəb və təlatümlü bir regionda Azərbaycanı mühüm təhlükəsizlik tərəfdaşı kimi dəyərləndirir. Mart ayında otuz ildən sonra Böyük Britaniyanın Azərbaycana ilk dəfə müdafiə attaşesi təyin etməsi Rusiyanın ciddi narahatlığına səbəb olub.

**Politoloq Oqtay Qasımovun "Yeni Müsavat"a bildirdiyinə görə, Rusiyanın təbliğat maşını növbəti dəfə boş iddialar ortaya atıb:** "Azərbaycan Britaniya ilə yaxşı əlaqələrə malikdir. Krallıq ölkəmizə ən çox investisiya yatıran dövlətdir. Tərəflər arasında siyasi-iqtisadi əlaqələr genişdir, həmişə inkişafdadır. Həmçinin Britaniya Azərbaycanın ərazi bütövlüyünü hər zaman dəstəkləyib. Ən əsası 2020-ci ildə Fransanın təşəbbüsü ilə ölkəmiz əleyhinə BMT Təhlükəsizlik Şurasında qətnamələrin qəbuluna hazırlıq gedəndə Britaniya buna əngəl oldu. Yəni dost və tərəfdaş ölkələrik. Sadəcə, Rusiya hibrid bir savaş açıb və iftira xarakterli məlumatlar yaymaqdadır".

**Onun fikrincə, doğrudur, Britaniya ilə Rusiya Ukrayna münaqişəsi səbəbindən münasibətlərin ən gərgin dövrünü yaşamaqdadır, ancaq o demək deyil ki, Bakı Moskva əleyhinə bloklarda yer alır**: "Hətta İranın vurulması prosesinə hazırlıq gedəndə də biz qonşumuza qarşı hansısa ssenarilərdə yer almamışıq. Odur ki, Rusiya informasiya məkanı növbəti yalan xəbərlər yayır. Azərbaycanın addımları Rusiya əleyhinə yönəlməyib və bunu birdəfəlik dərk etməlidirlər. Əgər bu gün Moskva ilə əlaqələrimiz pisləşibsə, bunun günahkarı da qarşı tərəfdir. İndi də özlərinin şovinist düşüncələrini yeritməyə çalışırlar, amma heç bir halda keçərli deyil. Azərbaycan Prezidenti ərəb televiziyasına müsahibəsində də bəyan etdi ki, bizə qarşı hörmətsizliyə dözməyəcəyik. Sadəcə, Rusiya elitası və təbliğat komandası dəyişən, müasirləşən dünyadakı yeni reallığı qəbul etməkdə çətinlik çəkir və o səbəbdən belə isterikaya qapılır".

**Siyasi ekspert Züriyə Qarayeva ingilislərin həmişə Qafqazda maraqlarının olduğunu düşünür:** "Bu tarixən belə olub. Təbii ki, siyasi-iqtisadi maraqlar səbəbindən region cəlbedicidir. Sadəcə, Rusiyanın reaksiyaları anlaşılmazdır. Azərbaycan bütün tərəflərlə əməkdaşlığın genişləndirilməsinin tərəfdarıdır. Əgər ruslar bundan narahatdırsa, deməli, Azərbaycanla dürüst dialoq və tərəfdaşlıq qurmadıqlarını qəbul edirlər. Sözsüz ki, Azərbaycanın hansısa siyasi oyunlarda iştirakını iddia etmək absurd olardı. Azərbaycandan indiyə qədər qonşularına xeyir gəlib, zərər yox. Təəssüf ki, məhz indi rus mediası belə dezinformasiyalar tirajlayır. Münasibətlərin gərgin dövrü olduğu üçün Azərbaycana qara yaxırlar. Halbuki Britaniya Azərbaycana xoş münasibətini heç zaman gizlətməyib və ədalətli yanaşıb. Biz Bakıdakı səfirin müsahibələrində də bu səmimiyyəti görə bilirik".

Ekspert hesab edir ki, Rusiya qəzəbli və xaotik reaksiyalarına son qoymalı, Azərbaycanla normal münasibətləri bərpa etmək üçün gözləntilərimizi yerinə yetirməlidir, nəinki hansısa görüşlərdə "ingilis barmağı" axtarmalı...

Qeyd edək ki, Azərbaycan və Böyük Britaniya arasında əlaqələr tarixi və strateji xarakter daşıyır. Əməkdaşlıq hələ XIX əsrin sonu-XX əsrin əvvəllərində yaranıb. Böyük Britaniya Azərbaycanın müstəqilliyini 1991-ci ilin dekabrında tanıyıb və ölkəmizin ATƏT-də iştirakını dəstəkləyib. 1994-cü ildə Bakıda Böyük Britaniyanın BP şirkətinin ən çox paya malik olduğu "Əsrin müqaviləsi" adlanan neft sazişi bağlanıb.

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

## "Putin ittifaqı"na daha bir ölkə qoşulur

**Rusiya Prezidenti Vladimir Putinin oktyabrın 10-da Tacikistana səfər edəcəyi gözlənilir. Məlumata görə, Putinin Düşənbə səfəri çərçivəsində həm MDB dövlət başçılarının sammiti, həm də "Rusiya-Mərkəzi Asiya" görüşü keçiriləcək. Səfər zamanı mühüm açıqlama gözlənilir. "Nezavisimaya qazeta" yazır ki, Tacikistan Prezidenti Emoməli Rəhmon həmin gün ölkəsinin Avrasiya İqtisadi İttifaqına (Aİİ) üzvlüyünü elan edə bilər.**

Avrasiya İqtisadi İttifaqı 2015-ci ildə yaradılıb. Onun əsas təşəbbüskarı Rusiya olub. "Putinin ittifaqı" kimi tanınan təşkilatın hazırkı üzvləri Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan və Ermənistandır.

## Ermənistan XİN bu sualı cavabsız qoydu

**Ermənistan Xarici İşlər Nazirliyi (XİN) Pakistanın rəsmi İrəvanın Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) üzv olmaq üçün müraciətini bloklaması ilə bağlı xəbərləri şərh etməyib.**

Ermənistan XİN-in mətbuat katibi Ani Badalyan detalları açıqlamaqdan imtina edib.

"Hazırda prosesin təfərrüatlarına varmayacağıq, lakin deyə bilərəm ki, biz Ermənistanın üzvlük məsələsində kifayət qədər konstruktiv yanaşma və qarşılıqlı anlaşma görürük. Bu anlayışla biz təşkilatla qarşılıqlı faydalı tərəfdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində ŞƏT-ə üzv dövlətlərlə işi davam etdirəcəyik", - o deyib.

Xəbər yayılıb ki, Pakistan Ermənistanın ŞƏT üzvlüyünü blok edib. Bildirilir ki, Pakistan Hindistanın Azərbaycanla bağlı hərəkətinə cavab olaraq belə bir addım atıb.

## Türkiyədən Minsk Qrupunun ləğvinə reaksiya

**Türkiyə Xarici İşlər Nazirliyi ATƏT-in Minsk prosesi və əlaqəli strukturlarının bağlanmasına dair qərarı alqışlayıb.**

Bu barədə nazirlik bəyanat yayıb.

Qeyd edilib ki, iki ölkənin ortaq səyi ilə reallaşan bu qərar Azərbaycan və Ermənistan arasında sülh prosesinin önəmli mərhələlərindən biridir.

Qeyd edək ki, sentyabrın 1-də ATƏT Nazirlər Şurası ATƏT-in Minsk prosesi və əlaqəli strukturlarının bağlanmasına dair qərar qəbul edib.




## Sağlamlıq haqda arayış almaq niyə çətinləşib?

**Jurnalist Ramilə Qurbanlı TƏBİB-i sərt tənqid edib. Medicina.az xəbər verir ki, o, övladına sağlamlıq haqqında arayış almaq üçün 3 poliklinikaya, 20 həkimə müraciət etməli olduğunu bildirib:**

“Birində analiz-filan verdik, göndərdilər ikinciyə ki, sistemə orada vurulmalıdır. Gedib orada həkimlərdən də keçməli idik, getdik, birindən keçdik, ikincidən, üçüncü üçün dedilər üçüncü xəstəxanaya getməlisiniz. Bir sağlamlıq arayışı üçün daha nə qədər məsafə qət etməli, neçə kabinetə girib, nə qədər həkimlə dartışmalıyıq?” Biri deyir indi əlimdə işim var, günortadan sonra gəl, o biri, ümumiyyətlə, yerində yoxdur".

**Jurnalist yazır:** “Sahə poliklinikasına gedib 20 manat verib bir dəqiqənin içində həll etdiyim vaxtlar üçün qəribsədim. Bu nə sistemdir yaratmısınız? Məqsədiniz nədir? Niyə öz poliklinikamızdan ala bilmirik bu arayışı? Niyə məzuniyyətdə olan həkimi əvəz edən yoxdur, biz niyə əziyyət çəkməliyik? Sistem niyə hər bir poliklinikanın özündə deyil? Uşaq qəbul alıb, getməlidir, vaxt dardır, amma günlərlə arayış arxasınca qaçmalıdır?”

# Ambulansda üç doğuşun yaratdığı suallar

## Rəşad Sultan: “Uşaq dünyaya hər yerdə gələ bilər - təyyarədə, qatarda, avtobusda...”

**Ötən həftə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) yaydığı məlumat diqqət çəkdi. Xəbərdə bildirilirdi ki, Azərbaycanda üç doğuş prosesi təcili tibbi yardım avtomobilində icra olunub. Doğuşlardan ikisi Bakıda, biri isə Quba rayonunda gerçəkləşib. Bir neçə gün əvvəl də ana Bakı metrosunda doğuş həyata keçirmiş və hadisə geniş reklam olunmuşdu.**

TƏBİB-in yaydığı son məlumat insanlar tərəfindən fərqli reaksiyalar doğurub. 21-ci əsrdə hələ də belə halların baş verməsi birmənalı qarşılanmayıb.

“Qaynarinfo” yazır ki, Azərbaycanda dövlət büdcəsindən hər il TƏBİB-ə və Səhiyyə Nazirliyinə Respublika üzrə universal-proqressiv patronaj xidmət göstərilməsi üçün milyonlarla vəsait ayrılır.

**Tibbi ekspert Müşfiq Hüseynov açıqlamasında hamilə qadınların metroda, təcili yardım maşınlarında dünyaya uşaq gətirməsini tənqid edib:** “Hamilə qadınla maarifləndirmə işi necə aparılıb ki, doğum gününü bilmir? Onun doğumdan ən azı 2 həftə əvvəl artıq nəzarətdə və diqqətdə olması lazımdır. Bundan başqa, son anda təcili yardımda baş verən doğum hadisəsi onu göstərir ki, xanımlar uşağı evdə dünyaya gətirmək fikrində olub. Son anda hər hansı səbəbdən fikirlərini dəyişiblər. Bu da qəbuledilməz haldır”.

**Professor Adil Qeybulla da hesab edir ki, hamiləlik planlaşdırılan olmalıdır:** “Doğum əvvəlcədən planlaşdırılmalıdır, axı ana yoxlanılır. Onun orqanizminin hamiləlik üçün təhlükəsiz olması tam təsdiqləndikdən sonra hamiləlik baş verir. Dünyanın hər yerində hamiləliyin konkret yoxlama protokolu var. Bu, uşağa mütəmadi nəzarətdir. Uşağın inkişafı, anadangəlmə qüsurların olması, döl daxilindəki quruma və onun həyatının davam etməsinin təsdiqi beynəlxalq protokolla təqib edilir. Doğuş sancılarına gəlincə, təəssüflər olsun ki, onu həmişə proqnozlaşdırmaq olmur. Təyyarədə, metroda, təcili yardım maşınları və evdə də belə hadisələr baş verə bilər. Hamilə qadınlar son aylarda daha diqqətli olmalıdırlar. Xüsusi ilə doğuşa yaxın aylarda ki, belə hadisələr baş verməsin”. Kim haqlıdır, xüsusilə paytaxtda bu cür kurioz doğuşlar ananın məsuliyyətidir, yoxsa ginekoloqun?

**Tanınmış mama-ginekoloq Rəşad Sultan mövzu ilə bağlı “Yeni Müsavat”a danışıb. Mütəxəssis səslənən fikirləri tənqidlə qarşılayıb:** “Niyəsə bəzən ixtisası ginekologiya ilə bağlı olmayan insanlar doğuş haqqında fikir bildirərək deyirlər: "Doğuş planlı olmalıdır, bu nə biabırçılıqdır, niyə doğuşa nəzarət etmirlər, niyə əvvəlcədən planlaşdırmırlar?" Halbuki məsələ o qədər sadə deyil. Əslində doğuş müəyyən hallarda planlı ola bilər, məsələn, tibbi zərurət olduqda, risklər nəzərə alındıqda və ya həkimin göstərişi ilə qeysəriyyə əməliyyatı təyin edildikdə. Amma ümumi qayda belədir ki, normal təbii doğuş plan üzrə baş vermir. Sancı nə vaxt başlayırsa, doğuş da o vaxt baş verir. Bu, həyatın öz axarı ilə gələn bir prosesdir. Doğuşun yalnız xəstəxana otağında, müəyyən dəqiqədə və plan əsasında baş verməsi fikri səhv yanaşmadır. Uşaq dünyaya hər yerdə gələ bilər - təyyarədə, qatarda, avtobusda, hətta təcili yardım maşınında. Elə buna görə də təcili tibbi yardım maşınları xüsusi avadanlıqla təmin olunur, əlavə xərclər çəkilir ki, məhz belə fövqəladə hallarda həkimlər və tibb personalı doğuşu idarə edə bilsin. Bu maşın, sadəcə, nəqliyyat vasitəsi deyil, hərtərəfli tibbi yardım göstərə bilən kiçik bir mobil klinikadır. Belə bir doğuşu “qeyri-adi hadisə” adlandırmaq düzgün deyil. Əksinə, bu, təbii doğuşun bir formasıdır. Həkimlər hər zaman hamilə qadınlara bildirirlər ki, sancı əlamətləri başladısa, dərhal xəstəxanaya yollanmaq lazımdır. Amma nəzərə almaq lazımdır ki, hər qadın bunu bacarmaya da bilər. Xüsusilə təkrar doğuşlarda proses daha sürətli gedir və qadın bəzən xəstəxanaya çatmadan körpəsini dünyaya gətirir. Burada əsas məsələ nəticədir - yəni həm ana, həm də uşaq sağlam olmalıdır. Mən heç də o fikirdə deyiləm ki, qadınlar mütləq küçədə, qatarda və ya başqa qeyri-adi şəraitdə doğuş etsinlər. Amma əgər belə hallar baş versə, onları faciə kimi deyil, həyatın bir gerçəkliyi kimi qəbul etmək lazımdır. Əks halda, təbii doğuşu daim tənqid edən yanaşmalar qadınların daha çox həkimlərə müraciət edərək səbəbsiz yerə qeysəriyyə əməliyyatı tələb etməsinə gətirib çıxara bilər. Bu isə nə ana, nə də uşaq üçün arzuolunan deyil".

**Rəşad Sultan bir daha vurğulayıb ki, xəstəxanadan kənarda baş verən doğuş qeyri-adi, təhlükəli və ya qəbuledilməz hal deyil:** “Əlbəttə, hər bir hamilə qadın məsuliyyətli olmalı, həkimin tövsiyələrinə əməl etməli, problem yarandıqda təcili yardıma və ya həkiminə müraciət etməlidir. Amma unutmamalıyıq ki, doğuşun özü təbii prosesdir və həyatın axarında hər yerdə baş verə bilər”.

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# “Gedin, ölün...”

## Tanınmış naşir xəstəxanadakı növbələrdən yazdı

**“Qanun” nəşrlər evinin direktoru Şahbaz Xuduoğlu İcbari Tibbi Sığorta sisteminin fəaliyyətini sərt tənqid edib. Medicina.az xəbər verir ki, bu barədə naşir paylaşımında bildirib.**

Şahbaz Xuduoğlu deyib ki, sistemdən yararlanmaq üçün Travmatologiya Xəstəxanasında olub: “İcbari sığortanın adı çoxdan çıxıb və biz də onun xidmətindən faydalanmaq istədik. İlk öncə yolumuzu Bakı Sağlamlıq Mərkəzinə saldıq. Orada bildirdilər ki, rentgen xidməti sığorta tərəfindən qarşılanmır. "Yaxşı olar ki, siz Travmatologiya Xəstəxanasına gedəsiniz", - dedilər".

**Naşir yazır:** “Travmatologiya Xəstəxanasının həyətində və binanın içindəki camaatı görəndə adama elə gəlir ki, ölkədə sınığı və sınan yeri olmayan kimsə yoxdur. Sızıltı, inilti, qışqırıq, əsəb, gərginlik... Ən çox da uşaqların ürəkparçalayan fəryadları. Uzun növbədən sonra birinci mərtəbədə sənə nömrə verirlər. O nömrə ilə şöbə müdirinə gedirsən. Şöbə müdiri həkimin adı və otaq nömrəsi yazılmış bir parça kağız verir. "Amma ikinci mərtəbədəki qeydiyyatdan da nömrə al" - deyir. İkinci mərtəbədə daha da uzun növbə. Nömrə alıb 210-cu otağa gedirik. Qapının ağzında çoxlu adam var. Mən öz nömrəmi deyib soruşuram: "Bu nömrədən əvvəl kim var?" Kimsə kənardan deyir: “O nömrə işləmir, içəridə kim varsa çıxanda bir-bir girəcəyik””.

**Şahbaz Xuduoğlu bir müddət sonra səbri daraldığı üçün qapını açıb içəri keçib:** “İçəridə üç həkim kefləri kök nəsə danışırdı. Dəhlizdə o qədər pasiyent olduğu halda onlardan heç biri çağırmır. Həkim bizə rentgen yazdı. Rentgenə də nömrə aldıq. Bu zaman gənc bir oğlan yaxınlaşıb dedi: "20 manat versəniz, sizi növbədənkənar rentgenə sala bilərik". Rentgenin cavabı ilə yenidən 210-cu otağa qayıtdıq. Həkimin qanı qaraydı. Dedi: “Müalicə bərpa üçün deyil, çalışmayın, biz sadəcə ağrını kəsə bilirik”. Sonra məsləhət gördü ki, MRT-yə gedək. Bunun üçün 212-ci otaqdan nömrə almalıyıq. Nəhayət, 212-ci otaq: "Biz bu sənədləri göndəririk təsdiqə, cavab nə vaxt gələr, bilmirik. Yaxşı olar ki, üçdən sonra əlaqə saxlayasınız". MRT növbəsinin necə olacağı isə artıq başqa bir hekayədir..."

**Naşir yekun olaraq yazır:** “Beləliklə, icbari sığorta ilə təcrübəmin qısa xülasəsi budur. Uzun növbələr, yorucu prosedurlar, qeyri-effektiv sistem və insanların əzabı, qısası, "gedin, ölün!"

Qarşı tərəflərin də mövqelərini dərc etməyə hazırıq.





YENİ MÜSAVAT
N 156 (8766) 3 sentyabr 2025

# İxracda üç lider - "ağ qızıl", "sarı qızıl" və "qırmızı qızıl"

## Qızıl, pomidor və pambıq lifi - Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2 milyard 9 milyon dollar təşkil edib



**2025-ci ilin yanvar-iyul aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2 milyard 9 milyon dollar təşkil edib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) "İxrac icmalı"nın avqust sayına əsasən, bu, 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 11,4 faiz artım deməkdir.**

İcmala görə, hesabat dövründə yeyinti məhsullarının ixracı 23,9 faiz artaraq 689 milyon ABŞ dollarına bərabər olub.

2025-ci ilin yanvar-iyul aylarında ixrac olunan şəkər ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,9 milyon dollar və ya 55,1 faiz, meyvə-tərəvəz 122,6 milyon dollar və ya 31,9 faiz, kimya sənayesi məhsulları 45,2 milyon dollar və ya 30,4 faiz, qara metallar və onlardan hazırlanan məmulatlar 8,6 milyon dollar və ya 19,1 faiz, pambıq iplik 2,6 milyon dollar və ya 18,2 faiz, çay 317 min dollar və ya 8,8 faiz artıb.

Cari ilin yeddi ayında aqrar məhsulların ixracı 27,9 faiz artaraq 551,4 milyon dollar, aqrar-sənaye məhsullarının ixracı isə 7,3 faiz artaraq 178,8 milyon dollara bərabər olub. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 22,1 faiz artaraq 730,2 milyon dollar təşkil edib.

Qeyd olunan dövrdə ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (178,8 milyon dollar) birinci olub. Bu siyahıda pomidor (tomat) (156,9 milyon dollar) ikinci, pambıq lifi (108,1 milyon dollar) isə üçüncü yerdə qərarlaşıb.

2025-ci ilin iyul ayı ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında şaftalı (48,5 milyon dollar) birinci olub. Bu siyahıda qızıl (33,9 milyon dollar) ikinci, daş kömür qatranının yüksək temperaturlu qovulmanın təmizlənməmiş digər yüngül yağları və məhsulları (13,8 milyon dollar) isə üçüncü yerdə qərarlaşıb.

Cari ilin yeddi ayında qeyri-neft məhsullarının əsas ixrac bazarı yenə Rusiya olub - 716,6 milyon dollar. İkinci yerdə gələn Türkiyəyə 339,7 milyon dollar, İsveçrəyə 186,6 milyon dollar, Gürcüstana 183,4 milyon dollar, Ukraynaya isə 109,9 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

Göründüyü kimi, Azərbaycanın münasibətləri getdikcə soyuyan Rusiya qeyri-neft, əsasən isə kənd təsərrüfatı məhsullarımızın əsas ixrac bazarı olaraq qalır. Rəsmi statistikaya əsasən, bu ilin birinci yarısında ixrac olunan 134 375,69 (149 milyon 26,32 min dollar) ton pomidorun 129 810,52 tonu(141 milyon 850,01 min dolları) Rusiyaya satılıb. Təxminən eyni vəziyyət alma, nar, xurma və digər məhsullarda da var. Təsadüfi deyil ki, Rusiyada Azərbaycanın "cəzalandırılması" üçün ilk təklif kimi kənd təsərrüfatı məhsullarının, xüsusilə də pomidorun idxalına qadağa qoyulması irəli sürülür. Son bir həftədə bu çağırışlar Azərbaycan Prezidenti İlham Əliyevin 1920-ci ildə ölkəmizin Rusiya tərəfindən işğal olunması faktını dilə gətirməsindən sonra daha da çoxalıb.

Qeyd edək ki, AZAL təyyarəsinin Rusiya tərəfindən vurulmasından sonra ölkələr arasında yaranan soyuqluq fonunda qarşı tərəfdən Azərbaycan məhsullarının idxalına ciddi bir maneə yaradılmayıb. Yalnız may ayında 60 tondan yuxarı pomidor və nektarində zərərvericilər aşkarlandığına dair "Rosselxoznadzor" tərəfindən irəli sürülən iddialar əsasında Rusiyaya idxalına imkan verilməyib. İyunda belə faktlar olmayıb. Bir qayda olara iyuldan etibarən Rusiyanın cənub regionlarında istehsal olunan pomidor bazara daxil olduğuna görə xaricdən idxal demək olar ki, dayandırılır. Azərbaycanda da pomidor ixracı minimuma düşərək, bir də oktyabrdan - istilikxana məhsulları yetişməyə başlayanda artır. Rusiya ilə münasibətlərdəki gərginlik o vaxta qədər yumşalmasa, Moskvanın "pomidor kartı"ndan istifadə edəcəyi istisna olunmur. Təcrübə göstərir ki, Rusiya hakimiyyəti siyasi məqsədlərinə çatmaq üçün daxili bazarda qiymət bahalaşması, əhalinin xərclərinin artması kimi amillərə əhəmiyyət vermir. Bu baxımdan, ölkə bazarında 30 faizə qədər payı olan Azərbaycan pomidorunun idxalının dayandırılması çətin olmayacaq.

Onu da qeyd edək ki, iyul-avqust aylarında pomidor ixrac olunmasa da, Rusiyaya Azərbaycandan alma və şaftalı-nektarin ixracı rekord səviyyədə artıb. İstehsalçılardan aldığımız məlumata görə, iki ayda almanın Rusiyaya ixrac qiyməti kəskin artaraq 3 manata yüksəlib. Bildirilir ki, Rusiyaya alma ixrac edən digər ölkələrdə bu il hava şərtlərinə görə məhsul yığımında kəskin azalma qeydə alındığına görə hazırda Rusiya bazarının mühüm hissəsi Azərbaycandan təmin olunur. Azərbaycanın meyvə istehsalçılarına görə, bu səbəbdən də Rusiya ölkəmizdən alma idxalına hər hansı problem yaratmır.

Qeyri-neft ixracında ilk üçlükdə yer alan məhsullardan qızılın əsas ixracatçısı "AzərGold" QSC-dir. İxrac icmalından aydın olur ki, onun ixrac gəlirləri illik ifadədə 2,3 dəfə artıb: 2024-cü ilin yanvar-iyul aylarında "AzerGold" QSC-nin ixrac gəlirləri 55,1 milyon dollar təşkil etmişdi.

Yanvar-iyulda Azərbaycanda 2533,5 kq gümüş, 1862,7 kq qızıl istehsal edilib. Gümüş istehsalı illik ifadədə 32,9 faiz, qızıl istehsalı isə 49,2 faiz artıb.

Rəsmi statistikadan aydın olur ki, qızılımız əsasən emal olunmamış formada İsveçrəyə göndərilir, oradan emal olunaraq geri qaytarılır.

Yeri gəlmişkən, "AzerGold" QSC və onun törəmə şirkətləri - "Daşkəsən Dəmir Filiz" MMC və "AzerBlast" MMC-nin 2024-cü ilin yekunlarına dair maliyyə hesabatlarından aydın olur ki, ötən il də qızıl hasilatçısı üçün uğurlu olub. Belə ki, ümumilikdə, 2023-cü illə müqayisədə satış gəlirləri 2024-cü ildə 35 faiz artaraq 182.69 milyon ABŞ dolları səviyyəsinə yüksəlib. Hesabat ilində qiymətlilərin satış həcmi 9 faiz artaraq, 70.5 min unsiya qızıl və 97.5 min unsiya gümüş təşkil edib.

2024-cü ildə istehsalat həcmi və satış gəlirlərinin artması nəticəsində "AzerGold" QSC və onun törəmə şirkətlərinin əməliyyat mənfəətini xarakterizə edən EBITDA göstəricisi 27.5 faiz artaraq 89.88 milyon ABŞ dolları səviyyəsində qeydə alınıb. Nəticədə xalis mənfəət 2023-cü illə müqayisədə hesabat ilində 21.3 faiz artaraq 33.02 milyon ABŞ dolları təşkil edib.

Azərbaycanda qızıl hasil edən digər şirkət olan Böyük Britaniyanın qızıl, "Anglo Asian Mining" (AAM) şirkəti də bu ilin ilk yarısında qızıl hasilatını kəskin artırıb. Şirkətin yaydığı məlumata görə, bu dövrdə qızıl hasilatını ötən ilin eyni dövrü ilə müqayisədə 2,5 dəfə artıraraq 12 115 unsiyaya çatdırıb. Hesabata əsasən, cari ilin II rübündə qızıl hasilatı 6 086 unsiya təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2,5 dəfə artım deməkdir (2024-cü ilin ikinci rübündə 2 438 unsiya). Şirkətin ümumi hasilatı isə 8 293 qızıl ekvivalent unsiyası olub.

Artıma əsas səbəb may ayında istismara verilmiş Gilar mədəni olub. Qeyd edilir ki, Gilar yatağından rüb ərzində 106 510 ton filiz hasil edilib. Filizin orta tərkibi 1,23 qr/t qızıl və 0,84 faiz mis təşkil edib. Şirkət hesabat dövründə ümumilikdə 9 781 unsiya qızıl külçəsi satıb. Satışların orta qiyməti 3 077 ABŞ dolları olub.

Yeddi ayda qeyri-neft ixracımızda üçüncü böyük paya malik "ağ qızıl" - pambıq mahlıcının ixrac bazarı baxımından Rusiyadan asılılıq yoxdur. Gömrük statistikasına görə, bu ilin ilk 7 ayında Azərbaycandan 109,7 milyon dollar həcmində 76 min 286 ton pambıq lifi ixrac edilib. Bu isə o deməkdir ki, pambıq lifi ixracı ötən ilin eyni dövrü ilə müqayisədə dəyər baxımından 16,7 milyon dollar və ya 13,2 faiz, miqdar baxımından isə 6 min 76 ton və ya 7,3 faiz azalıb. Xatırladaq ki, 2024-cü ilin yanvar-iyul ayları ərzində Azərbaycandan 126,4 milyon dollar dəyərində 82 min 360 ton pambıq lifi ixrac olunmuşdu. Bu ilin ilk 7 ayında Azərbaycanın ixrac etdiyi pambıq lifinin 1 kiloqramının orta ixrac qiyməti 2 manat 45 qəpik təşkil edib. 2024-cü ilin eyni dövründə isə bu rəqəm 2 manat 61 qəpik idi. Bu da illik müqayisə ilə 16 qəpik və ya 6,1 faiz ucuzlaşma deməkdir (Fed.az).

Maraqlıdır ki, ixrac azalsa da, mahlıc istehsalında artım var. Dövlət Statistika Komitəsinin məlumatına əsasən 7 ayda Azərbaycanda 47721,6 ton pambıq mahlıcı istehsal olunub ki, bu da 2024-cü ilin eyni dövründəkindən 32,1 faiz çoxdur.

Pambığın emalından əldə olunan iplik istehsalı və ixracında da artım var. Bu ilin 7 ayında Azərbaycandan 17 milyon dollar həcmində 7 min 282 ton pambıq iplik ixrac edilib. Pambıq iplik ixracı ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsində 2,6 milyon dollar və ya 18,2 faiz, miqdar ifadəsində isə 1 min 603 ton və ya 28,2 faiz artıb. Hesabat dövründə Azərbaycanın ixrac etdiyi pambıq ipliyin 1 kiloqramının orta ixrac qiyməti 3 manat 97 qəpik təşkil edib. 2024-cü ilin eyni dövründə isə bu rəqəm 4 manat 32 qəpik idi. Bu da illik müqayisə ilə 35 qəpik və ya 8,1 faiz ucuzlaşma deməkdir.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 156 (8766) 3 sentyabr 2025

# Paytaxt tıxaclarının 5 il "ömrü qalıb"

## Xəzərin dayazlaşdığı vaxtda dəniz üzərindən körpünün salınması gerçəkləşə bilərmi?

**Paytaxt Bakı və onun ətraf ərazilərində tıxac problemi artıq gündəlik həyatın ayrılmaz hissəsinə çevrilib. Yeni tədris ilinin başlanması ilə bu yükün daha da artacağı gözlənilir. Şəhərin demək olar ki, bütün əsas küçə və prospektlərində, xüsusilə səhər və axşam pik saatlarda nəqliyyatın hərəkəti iflic olur.**

Mütəxəssislər hesab edir ki, bu vəziyyətin əsas səbəbləri avtomobillərin sayının sürətlə çoxalması, yol infrastrukturunun bu artıma uyğun inkişaf etməməsi, parklanma qaydalarının kütləvi şəkildə pozulması və ictimai nəqliyyatdan istifadənin hələ də istənilən səviyyədə olmamasıdır.

**Nəqliyyat eksperti Eldəniz Cəfərov**un sözlərinə görə, artıq hökumət səviyyəsində problemin həlli üçün konkret addımlar atılır. Onun Modern.az-a verdiyi açıqlamaya görə, Bakı və ətraf ərazilər üzrə xüsusi "yol xəritəsi" hazırlanıb. Sənəd yolların genişləndirilməsi, yeni alternativ marşrutların açılması, ictimai nəqliyyatın gücləndirilməsi və ağıllı nəqliyyat sistemlərinin tətbiqi kimi tədbirləri özündə birləşdirir.

**Ekspert qeyd edir ki, proqramın icrasına başlanılıb və növbəti beş il ərzində görüləcək işlər nəticəsində tıxacların miqyası əhəmiyyətli dərəcədə azaldıla bilər:** "Əgər plan ardıcıl və vaxtında reallaşdırılsa, yaxın 5 ildə Bakı küçələrində indiki vəziyyət müşahidə olunmayacaq. Tıxacların mövcudluğu minimal səviyyəyə enəcək".

Lakin mövcud vəziyyəti nəzərə alanda bəzi vətəndaşlar və ekspertlər təklif olunan layihələrin reallaşmasına skeptik yanaşır. Çünki Bakının sıx məskunlaşmış və dar küçəli mərkəzi hissələrində yolların genişləndirilməsi, yeni magistralların çəkilməsi çox çətin görünür.

Bu baxımdan, son illərdə gündəmə gətirilən, lakin reallaşmayan alternativ ideyalar da var. Məsələn, Bayıl ərazisindən Əhmədli istiqamətinə Xəzər dənizi üzərindən avtomobil körpüsünün salınması təklifi mütəxəssislər tərəfindən "tıxaclara dərman" hesab edilirdi. Körpü və bərə daşımalarının tətbiqi nəqliyyat yükünü şəhər mərkəzindən kənara yönəldə bilərdi.

Digər bir təklif isə Bayıldan "Neftçilər" prospekti və "Azneft" dairəsi yaxınlığından başlayaraq, Bəhram Gur heykəli ərazisindən keçib Badamdardakı avtomobil bazarına qədər uzanacaq tunelin inşası idi. Bu ideya bir müddət gündəmdə qalsa da, sonradan unuduldu. Halbuki həmin tunelin tikilməsi şəhər mərkəzindən kənara çıxışı xeyli asanlaşdıra bilər və hərəkət sıxlığını azalda bilərdi.

Əslində Bakıda tıxacların tamamilə aradan qaldırılması real görünmür. Lakin problemin miqyasını azaltmaq mümkündür. Bunun üçün həm iri infrastruktur layihələrinin həyata keçirilməsi, həm də ictimai nəqliyyata marağın artırılması vacibdir. Əks halda, hazırkı vəziyyət təkcə sürücülərin əsəblərini yox, həm də ölkə iqtisadiyyatını böyük ziyana uğratmağa davam edəcək.



**Nəqliyyat sahəsi üzrə ekspert Elməddin Muradlı** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, yeni metro stansiyalarının salınması, avtobusların sayının artırılması və yeni yol infrastrukturunun çəkilməsi məsələsi "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı"nda öz əksini tapıb. Onun sözlərinə görə, sözügedən layihələr Bakının Baş planında da göstərilib: "Bu işlərin icrasına artıq başlanılıb. Ona görə də əminliklə deyə bilərəm ki, problemlər zamanla öz həllini tapacaq. Lakin çox qısa zamanda bunu gözləyə bilmərik. Bakının rahat nəfəs alacaq dövrünü təxminən 2040-cı ildən sonra görmək mümkün olacaq. Lakin ona qədər bu istiqamətdə nə qədər iş görülsə, hamısının öz faydası olacaq. Amma bu işləri sistemli şəkildə etmək lazımdır. Sistemsiz şəkildə hansısa bir layihə edilərsə və o digər layihə ilə tamamlanmarsa, bunun effekti olmayacaq".

**Ekspert qeyd edir ki, yollarla bağlı dövlət proqramı böyük investisiya tələb edir. Onun icrası yaxın illərdə yekunlaşa bilməz:** "Layihənin artıq birinci mərhələsi başlayıb. Yeni yolların, tunellərin salınması və mövcud yol şəbəkəsinin genişləndirilməsi, metro infrastrukturunun gücləndirilməsi işləri həyata keçiriləcək. Metro stansiyalarının sayı 28-dən 50-yə çatdırılacaq. Proqrama nəzər salsaq, hətta 60-dan çox metrostansiya Bakını sıxlıqdan xilas edə biləcək. Təbii ki, bu, zaman alacaq. Metro tikintisi asan məsələ deyil, 5 il ərzində hələlik bunlardan 10 stansiyanın salınması nəzərdə tutulur. "Dərnəgül", "28 May", "Sahil" metrostansiyalarının ətrafında və Ağ Şəhərdə yeni stansiyaların tikintisinə artıq başlanılır, layihələndirmə işləri aparılır".

**E.Muradlı dəniz üzərindən körpünün salınmasının arzuolunan layihə olduğunu bildirib:** "Dənizin geri çəkildiyi bir dövrdə bu işi daha rahat şəkildə etmək olar. Bir çox ölkələrdə bu layihələr icra olunur. Qardaş Türkiyədə də körpü təcrübəsi var. Düşünürəm ki, türkiyəli mühəndislər layihəni daha təhlükəsiz şəkildə icra edə bilər. Lakin nədənsə bu layihəyə maraq yoxdur. Halbuki körpü Bakı üçün həm də estetik görünə bilər. Düşünürəm ki, Dövlət Bayrağı Meydanının və ya Bibiheybət məscidinin yanından körpü salmaqla onu Zığ, Əhmədli və yaxud da ən yaxşı halda "Ağ şəhər" lə əlaqələndirmək olar. Həm estetik, həm də nəqliyyat təhlükəsizliyi baxımından gözəl olar. Doğrudur, Xəzər dənizindəki tektonik vəziyyəti nəzərə alıb, narahatlıq keçirirlər. Amma nəzərə alaq ki, zəlzələ ocaqlarında hündürmərtəbəli binalar da tikilir. Biz niyə sovet şinelindən, köhnə fikirlərdən əl çəkə bilmirik?!

Badamdardakı avtomobil bazarına qədər uzanacaq tunelin inşası isə real məsələ deyil. Elə bir tunelin tikintisinə ehtiyac yoxdur. Hazırda nəzərdə tutulan bir layihə var - Badamdar üzərindən yeni bir yolun salınmasını nəzərdə tutur. Şəhərin cənub qapısından gələn maşınları Badamdardan kənar dairəvi yola yönləndirəcək. Bunun üçün "20-ci sahə"də söküntü işləri aparılacaq və yeni yol çəkiləcək.

Bizim ən böyük problemimiz odur ki, kənar dairəvi yolları yarımçıq qoyublar, onları bərpa etmək lazımdır. Bu yolları Bakıda bir halqa kimi dövrə vurmalıdır. "Lökbatan dairəsi"ndən kənar dairəvi yola çıxdıqda plana uyğun olaraq yolun Sabunçuya, Maştağaya giriş imkanı olmalıdır. Lakin bu yol Şamaxinka adlanan ərazidə qırılır və Ziya Bünyadov prospektinə qoşulmaq mümkünsüz olur. Halbuki bu prospektə maneəsiz daxil olsan, yolu tıxacsız və rahat gedə bilərsən. Əksinə, "20 Yanvar" və "3-cü mikrorayon dairəsi"nin sıxlığına düşürsən. Bu, biabırçılıqdır. Ziya Bünyadov prospekti "20 Yanvar" dairəsində niyə bitməlidir və orada bir xaos yaşanmalıdır?! Dairə "20 Yanvar" və Alatava qəsəbəsinin üzərindən kənar dairəvi yola birləşməlidir. Lənkərana gedən adamı "20 Yanvar"a çatanda Quba istiqamətinə göndərirlər. Belə yol çəkilər?!"

**Ekspert bildirir ki, yolların genişləndirilməsi şəhər içindən çox digər ərazilərdə nəzərdə tutulur:** "Məsələn, "Xırdalan dairəsi"nə giriş iki zolaqdan ibarətdir, o da heç tam deyil. Ola bilsin ki, orada genişləndirmə işi aparıb başqa mexanizm tətbiq etməklə problemi həll etmək olar. "Xırdalan dairəsi"ni genişləndirib 4 zolaq etmişdilər, lakin başa düşmədilər ki, problem dairəyə girişdədir.

"Yusif Səfərov" küçəsində 5, "Heydər Əliyev" prospektində isə 1 zolaq var. Belə iş olar?!"

❑ **Şahanə RƏHİMLİ,
"Yeni Müsavat"**

# DYP-dən velosiped sürənlərə müraciət



**Baş Dövlət Yol Polisi İdarəsi velosiped idarə edənlərə müraciət edib.**

Müraciətdə deyilir:

"Ölkəmizdə sağlam həyat tərzinin təşviqi və ekoloji cəhətdən təmiz nəqliyyat vasitəsi kimi velosipeddən istifadənin artması sevindirici haldır. Lakin unudulmamalıdır ki, velosipedçilər də yol hərəkətinin bərabərhüquqlu iştirakçılarıdır və müəyyən edilmiş qaydalara əməl etməyə borcludurlar.

Son vaxtlar müşahidələr göstərir ki, bəzi velosipedçilərin yol hərəkəti qaydalarını pozması nəticəsində xoşagəlməz hadisələr baş verir, bu isə onların xəsarət alması, bəzən isə həyatını itirməsi ilə nəticələnir.

Xatırladırıq ki, velosiped sürərkən əlləri sükandan çəkərək telefonla danışmaq yolverilməzdir. İstiqaməti dəyişərkən və ya yolayrıcında dönərkən qəfil manevrlərə yol verilməməli, digər hərəkət iştirakçıları əvvəlcədən əl işarəsi ilə xəbərdar edilməlidir. Bundan başqa, xüsusi velosiped zolaqları olan yerlərdə yalnız həmin zolaqlardan, digər hallarda isə yolun sağ kənarından istifadə olunması vacibdir.

Unutmayın ki, yol hərəkəti qaydalarına riayət etmək - həyatınızı qorumağın ən etibarlı yoludur".

# Azərbaycan dəmir yollarında neçə yük stansiyası var?



**Azərbaycan dəmir yollarında mövcud stansiyaların bir çoxu, daha dəqiq desək, 119-u yük stansiyasıdır.**

Bu barədə "Azərbaycan Dəmir Yolları" QSC-nin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Bəxtiyar Hacıyev məlumat verib.

Qurum rəsmisi bildirib ki, Azərbaycan dəmir yollarının əsas fəaliyyət istiqamətinin yükdaşıma olduğunu nəzərə alsaq, bu təbiidir: "Yeni bəzi və ya bir sıra istiqamətlərə sərnişin qatarlarının hərəkət etməməsi o demək deyil ki, həmin istiqamətlərdə mövcud olan stansiyalar fəaliyyətsizdir. Qeyd etdiyim kimi, əsasən yükdaşımaları həyata keçirilir. Bununla belə, bir sıra yük stansiyaları var ki, həmin stansiyalarda həm də sərnişin qatarlarına dayanacaq verilib. Məsələn, Ağstafa, Biləcəri, Xırdalan, Bərdə və başqaları. Həmçinin 6 iri sərnişindaşıma təyinatlı vağzal, 13 stansiya və dayanacaq da mövcuddur".

YENİ MÜSAVAT
N 156 (8766) 3 sentyabr 2025

# Bakıdakı “toy mafiyası” əndişədə

Yas israfçılığının qarşısı alındıqdan sonra toylarda necə qayda-qanun yaratmaq olaq? **Ekspert:** "Toylar, sadəcə, ailə qurmaq üçün təşkil olunan şənliklər deyil, israfçılıq, harınlıq və görməmişliyin nümayişinə çevrilib"




**İslam dinində israfçılıq günah hesab edilir. Quranda yemək-içmək barədə ayə var ki, yeyin-için, israf etməyin, deyilir. Dəfələrlə yazılsa da, maarifləndirmə işləri aparılsa da, toy və el şənliklərində yol verilən israfçılıq aradan qalxmır. İnsanlar bir-birinin bəhsinə, “süfrəm çoxçeşidli olmasa, filankəs nə deyər” fikirlərinə görə kompleksə girir, dəbdəbəli məclislərdən əl çəkmir.**

Toy mərasimlərini diqqətlə araşdıranda məlum olur ki, arxasında ciddi bir maddi marağı olan şəbəkələr var. Bunlar günü-gündən çoxalan şadlıq evləridir. Bu şəbəkələrin sahibləri maraqlıdırlar ki, ölkədə bu cür toy mərasimləri daha da çoxalsın. Əhalinin əksər hissəsinin heç o toylara getmək imkanı yoxdur. Əhalinin orta aylıq əməkhaqqı 300 manatdan bir az artıqdır və bu da onun gündəlik və kommunal xərclərini ancaq görə bilər. Əgər həmin insanı bir ayda 3-4 toya çağırıblarsa, bu bir ailə üçün ciddi maddi sınaqdır.

Toy biznesindən ən böyük fayda götürən sahə təbii ki, şadlıq saraylarıdır. Hazırda Bakı ərazisində təxminən 600 şadlıq sarayı fəaliyyət göstərir. Ortalama 1 şadlıq sarayı üçün menyunu 40 manat götürsək 300 nəfərdən əldə olunan gəlir 12 min manat edər. Əgər bunu 150 şadlıq sarayı üçün nəzərə alsaq, bir gün ərzində şadlıq saraylarının azı 1,8 milyon gəlir götürdüyü dəqiqləşir.

Ekspertlərə görə, bu məsələnin həllində inzibati üsullar rol oynaya bilər, ancaq bunun üçün maarifləndirməyə də ehtiyac var. Yaxşı olar ki, ziyalılar, məmurlar, incəsənət xadimləri kimi tanınmışlar şəxsi nümunə göstərsinlər. Özlərinin toy mərasimlərinin yığcam və sadə şəkildə keçirməklə, belə bir dəb yarada bilərlər. Tanınmış insanlar 50-80 nəfərlik toy eləsə, bu, dəb ola bilər. 300 nəfərlik toy məclisi üçün ərzaq səbətinin əsas hissələri 180 kq ət, 110-120 şüşə araq-çaxır, təqribən 200 şüşə sərinləşdirici içkilər, 15 kq kolbasa və sairdir. Bundan başqa, hər şadlıq evində məclis zamanı ofisiant və digər qisimdə 40-a qədər işçi çalışır.

Toy məclislərinin ən böyük tələbat yaratdığı sahə ət və ət məmulatlarıdır. Ətin də qiyməti son aylarda qalxaraq 20 manata çatıb. Toy məclislərinin ayrılmaz atributu araq-çaxırdır. Yeri gəlmişkən, Məhərrəmlikdə toyların dayandırılmasının bir səbəbi də məclislərdə içkinin verilməsidir. Orta hesabla hər məclisdə 120 şüşə araq-şərab verilir (80+40 nisbətində). 1 şüşə içkinin qiymətini ortalama 10 manatdan götürsək, bu bir toyda 1200 manat, 150 şadlıq sarayında isə 180 min manat dövriyyə deməkdir. Bir ay ərzində toylarda spirtli içkilərə xərclədiyi vəsait isə 5,5 milyon manat ətrafındadır.

Bəs hər kəsi “dərd”ə salan yas israfçılığından sonra toy mafiyasından necə xilas olaq?

**Sosioloq Elçin Bayramlıya** görə, müasir dövrdə Azərbaycanda keçirilən toy mərasimləri getdikcə milli və insani dəyərlərdən uzaqlaşmaqdadır. O bildirir ki, bugünkü toylar artıq sadəcə ailə qurmaq üçün təşkil olunan şənliklər deyil, israfçılıq, harınlıq və görməmişliyin nümayişinə çevrilib: "Toy zallarında yüksələn səs-küy, süfrələrdə israf olunan saysız-hesabsız nemətlər, içində olmaq çətin olan bir şou atmosferi - bunların hamısı cəmiyyətin mənəvi deqradasiyasının göstəricisidir".

Ekspertin fikrincə, bu cür toylar yalnız mədəni deyil, həm də sosial problemlərə yol açır. Yeni qurulan ailələr çox vaxt ağır borc yükü altına girir, toya qatılan qonaqlar isə böyük məbləğlərdə vəsait xərcləyərək özlərinə deyil, şadlıq sarayı bizneslərinə sərmayə qoymuş olurlar. Toy mərasimləri artıq ailə institutuna dəstək yox, zərbə vurur. E.Bayramlının qənaətincə, bu vəziyyəti təkcə maarifləndirmə ilə dəyişmək mümkün deyil. Artıq illərdir bu cür çağırışlar edilir, lakin nəticə yoxdur. Buna görə də sosioloq hesab edir ki, məsələnin həlli inzibati çərçivələrin müəyyənləşdirilməsindən keçir. Onun fikrincə, sadə və təvazökar toyların keçirilməsinə dair dövlət səviyyəsində qaydalar hazırlanmalı, parlamentdə müzakirələr aparılmalı və səs terroru kimi insan sağlamlığına zərər vuran hallar qadağan edilməlidir.

Elçin Bayramlı xüsusi olaraq ziyalı təbəqənin - alimlərin, məmurların, deputat və nazirlərin - bu sahədə nümunə olmasının vacibliyini vurğulayır. Onlar ilk olaraq öz toylarında sadəlik nümayiş etdirməli və bu yolla cəmiyyətə mesaj verməlidirlər. Çünki ictimai davranış modelləri yuxarı təbəqədən aşağıya doğru formalaşır.

**Sosioloqun sözlərinə görə, bir çox ölkələrdə dəbdəbəli toylar qanunla qadağan olunub:** “Xüsusilə dövlət və biznes sektorunda çalışanlara belə mərasimlər keçirməyə icazə verilmir. Azərbaycanda da buna bənzər yanaşmalar tətbiq olunmalıdır, əks halda, toylar sevinc və ailə birliyi yox, sadəcə, "kim daha çox pul xərcləyəcək" yarışına çevriləcək".

Dəbdəbəli və israfçılıqla müşayiət olunan toy mərasimləri dünyanın müxtəlif ölkələrində də sosial, iqtisadi və mədəni narahatlıq doğuran bir məsələyə çevrilib. Məsələn, Çində bəzi bölgələrdə artıq illərdir ki, dəbdəbəli toylar və bahalı hədiyyələrə qarşı ciddi tədbirlər görülür.

Oxşar yanaşmanı Pakistan da tətbiq edir. Burada yalnız bir növ yeməyin təqdim edilməsinə icazə verilir, musiqinin səs səviyyəsi tənzimlənir və bahalı bəzəklərə, hədiyyələrə icazə verilmir. Qanunu pozan şəxslərə isə cərimələr və digər inzibati cəzalar gözləyir. Hətta Pakistanın bəzi bölgələrində Ali Məhkəmə qərarı ilə toy ziyafətləri tamamilə ləğv olunub və yalnız yüngül içkilərlə məhdudlaşdırılıb. Bu cür yanaşma cəmiyyətin aşağı təbəqələrinə iqtisadi təzyiqləri azaltmağa xidmət edir.

Mərkəzi Asiya ölkələrində də bu sahədə maraqlı və effektli nümunələr var. Tacikistan 2007-ci ildə toy və digər mərasimlərlə bağlı xüsusi qanun qəbul edib. Qanun mərasimlərin müddətini, iştirakçı sayını və təqdim ediləcək yeməklərin miqdarını dəqiq şəkildə müəyyənləşdirir. Misal üçün, toy maksimum 3 saat davam etməlidir, yalnız sadə yeməklər təqdim olunmalıdır və dəvət olunan qonaqların sayı əvvəlcədən müəyyən edilən normanı keçməməlidir. 2017-ci ildə qanuna edilən əlavələrlə nəzarət mexanizmi daha da sərtləşdirilib. Artıq “israfçı” sayılan toy süfrələri müsadirə olunur, hədiyyə siyahıları yoxlanılır və müvafiq dövlət qurumları bu prosesi ciddi şəkildə izləyir. Oxşar tənzimləmələr Özbəkistanda da tətbiq olunur.

Bir çox ölkələrin təcrübəsi göstərir ki, dəbdəbəli toylarla bağlı problem təkcə maarifləndirmə ilə deyil, konkret hüquqi tənzimləmələrlə həll edilməyə çalışılır.

**Deputat Aqil Abbas mövzu ilə bağlı “Yeni Müsavat”a deyib ki, bu məsələnin qanunla tənzimlənməsinin tərəfdarı deyil. Onun fikrincə, bu maarifləndirmə yolu ilə həll olun**malıdır. O, Naxçıvan təcrübəsindən misal çəkərək bildirib ki, burada tədricən insanlar israfçılıqdan uzaqlaşıblar: “Polislə insanların başı üstündə nəzarət edərək toyları na qadağa qoymaq düzgün deyil”.

**Afaq MİRAYİQ,
“Yeni Müsavat”**



## Mal əti yenidən bahalaşdı

**Bakıda və bəzi bölgələrdə mal ətinin qiymətində artım müşahidə olunur. Bu artım paytaxtda 2 manat, bölgələrdə isə 1 manatdır. Bəs bu artım nə ilə bağlıdır? Ətin qiymətinin artmasını qəssablar da təsdiq edir. Onların sözlərinə görə, qiymət artması onlara sərf etmir.**

“Çünki qiymət artdıqca alıcı da azalır. Qiymət artımının səbəbi mal qıtlığıdır. Əvvəl xaricdən gəlirdi, artıq gəlmir. Həm də otun qiyməti artıb. Örüş sahələri də azalıb. Əvvəllər bazara 100 baş heyvan çıxarıldısa, indi 40-50 baş çıxarılır. Yay aylarında maldarlığa maraq qış aylarına nisbətən az olur ki, bu da qiymət artımına təsir göstərir. Bölgələrdə ət 17 manata təklif edilir, Bakıda isə 20 manatdır”. (Mili.az).

Qeyd edək ki, mal ətindən fərqli olaraq quzu ətinin qiymətində dəyişiklik hiss olunmur. Hazırda quzu ətinin qiyməti 19-20 manatdır.

Məsələ ilə bağlı **iqtisadçı Xalid Kərimli** qeyd edir ki, ətin qiymətinin baha olması idxaldan asılılıqla və yerli məhsulun lazimi qədər olmaması ilə bağlıdır. “Təsərrüfatda qiymətlər artıb. Ot bağlamaları, yemlərin qiyməti heyvandarlıqla məşğul olan şəxsə sərf eləmir. Şərqi Zəngəzur və Qarabağda saxlanılan heyvanların sayı çoxaldılarsa, qiymətlər nisbətən aşağı düşə bilər”.

Ekspert bildirir ki, əhalinin artımı fonunda saxlanılan heyvanların azalması da qiymətin artımına təkan verir.

## Avqustda 4 nəfər zəhərlənərək ölüb

**Avqust ayı ərzində Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinə zəhərlənmə səbəbi ilə 94 nəfər qəbul edilib. Bu barədə KTM məlumat yayıb. Bildirilib ki, şöbəyə qəbul edilən xəstələrdən 30 nəfər dərmandan, 37-si sirkə turşusundan, 5-i həlledici məhluldan zəhərlənən şəxslərdir.**

Həmçinin 13 nəfər ilan sancması, 7 nəfər allergik reaksiya, 2 nəfər botulizm zəhərlənməsi səbəbilə şöbəyə yerləşdirilib.

Həkimlərin səylərinə baxmayaraq, zəhərlənən şəxslərdən 4-ü (2 nəfər qadın, 2 nəfər kişi) dünyasını dəyişib.

Ölüm halları sirkə turşusu zəhərlənmələrindən qeydə alınıb.

YENİ MÜSAVAT
N 156 (8766) 3 sentyabr 2025

# Azərbaycan adına qondarma diaspora yaradılır

## Qabil Hüseynli: "İcmalar üzərindən təsir aləti qurmağa cəhd göstərirlər"

**Azərbaycanla münasibətlərdə gərginlik artdıqca, Kreml Rusiyadakı azərbaycanlı icmaları təzyiq alətinə çevirir. Belə ki, Yekaterinburqda Vidadi Mustafayev Ural Azərbaycanlılarının Mədəniyyət, Gənclər və İdman Mərkəzinin rəhbəri seçilib. O, faktiki olaraq bir müddət əvvəl həbs edilən rəqibi Şahin Şıxlinskinin yerinə keçib.**

Bundan sonra Vidadi Mustafayev Yekaterinburqda artıq Azərbaycan diasporunun olmadığını bildirib.

"Biz diaspora anlayışını ləğv etdik, çünki bu anlayış artıq özünü doğrultmayıb. Mən bu vəzifədə gənclərin tərbiyəsi ilə məşğul olmağı planlaşdırıram. Axı onlara heç kim başa salmayıb ki, nə yaxşıdır, nə pis. Biz onlara izah edəcəyik ki, Rusiya qanunlarına uyğun yaşamaq lazımdır. Şahin Şıxlinskinin diaspora rəhbəri kimi fəaliyyəti tamamilə uğursuz olub. Bu fəaliyyət biznesə və ya mədəniyyətə həsr olunmurdu. Şahin Şıxlinski yalnız cibinə işləyirdi", - deyə o, 66.ru saytına müsahibəsində bildirib.

Qeyd edək ki, bundan əvvəl Rusiya mətbuatı Şıxlinski ilə Mustafayevin rəqabəti və münaqişəsindən yazmışdı. Məlumata görə, Şahin Şıxlinskinin ailəsinə qarşı hüquq-mühafizə orqanlarını təhrik edən də məhz Vidadi Mustafayev olub. Rusiya qondarma Azərbaycan diasporu yaratmaqla nəyə nail olmaq istəyir?

**Politoloq Qabil Hüseynli "Yeni Müsavat"a deyib ki, Rusiya öz tipik oyununu göstərir:** "Azərbaycandan Rusiyaya daşınan kənd təsərrüfatı məhsullarına qadağaların ardından Azərbaycan adına qondarma diaspora yaratmaqla, icmalar üzərindən təsir aləti qurmağa cəhd göstərirlər. Yekaterinburqda Vidadi Mustafayevin Şahin Şıxlinskini əvəzləməsi əslində Moskvanın planının bir hissəsidir. Burada mədəniyyət, gənclərin tərbiyəsi yalnız bəhanədir; əsas məqsəd Azərbaycana qarşı ideoloji və siyasi nəzarət mexanizmini işlətməkdir. Mustafayev açıq şəkildə "diaspora artıq özünü doğrultmayıb" deyir. Söhbət əslində Azərbaycan diasporasının yox, Kremlin maraqlarına xidmət edən qurumun yaradılmasından gedir. Rusiya istəyir ki, Rusiyada yaşayan azərbaycanlılar yalnız Kremlin qanunları və qaydaları ilə yaşasın, milli maraqlardan danışmaq isə qadağan edilsin".

**Politoloq deyir ki, Yekaterinburqda baş verənlər göstərir ki, Moskva Azərbaycan icmalarını siyasi oyunda alətə çevirmək niyyətindədir**: "Diasporamızın müstəqil fəaliyyətinə imkan verilmir. Qondarma diaspora yaratmaqla isə həm Azərbaycana təsir etmək, həm də Rusiyadakı azərbaycanlılar arasında milli birliyi zəiflətmək planlaşdırılır. Rusiyanın Azərbaycana qarşı uzunmüddətli



strateji planının növbəti mərhələsi başlayır. Rusiya burada yalnız bir icma rəhbərini dəyişmir, həm də "qondarma diaspora" yaratmaqla icmalar üzərində tam nəzarət qurmaq istəyir. Bunun arxasında Moskvanın Azərbaycan diasporasına siyasi müdaxilə və ideoloji təsir məqsədləri dayanır. Burada əsas məqsəd milli şüurun formalaşmasının qarşısını almaq, gəncləri Azərbaycan dövlətinin maraqlarından uzaqlaşdırmaqdır. Şahin Şıxlinski ilə Mustafayev arasındakı rəqabət isə yalnız şəxsi maraqlar və nüfuz mübarizəsi kimi təqdim olunur, amma faktiki olaraq Kremlin diaspor üzərindən idarəçilik strategiyasının alətidir".

**Politoloq qeyd edib ki, bu prosesin arxasında duran əsas məqsədlər belədir:** "Moskva icmaların müstəqil fəaliyyətinə imkan vermir və onları Kremlin maraqlarına uyğun fəaliyyət göstərməyə məcbur edir. Rusiyada yaşayan azərbaycanlıların milli şüuru zəiflədilir, onları Azərbaycan dövlətinə bağlılığını azaltmaq məqsədilə qondarma qurumlar vasitəsilə idarə etməyə çalışırlar. "Gənclərin tərbiyəsi" və "mədəniyyət" kimi bəhanələr yalnız örtükdür. Əslində Rusiya istənilən icma liderini öz maraqlarına uyğun seçərək ideoloji təsir göstərir. Mustafayevin vurğuladığı kimi, "Rusiya qanunlarına uyğun yaşamaq" gənclərə izah ediləcək. Bu, yalnız qanuni çərçivəni öyrətmək deyil, həm də sosial və siyasi loyallığı təmin etmək məqsədi daşıyır. Bu gün Yekaterinburqda baş verənlər, sadəcə, şəxsi rəqabət və ya mədəni təşkilat dəyişikliyi deyil. Bu, Kremlin Azərbaycan diasporuna qarşı yönəltdiyi sistemli və planlı təzyiqin açıq nümunəsidir. Rusiyanın məqsədi həm Azərbaycan icmalarını faktiki nəzarət altında saxlamaq, həm də milli maraqlara təsir imkanını genişləndirməkdir".

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# Yerdən təyyarəyə göndərilən "bəla"

## Rusiyanın ittihamları və GPS nasazlığının arxasındakı həqiqətlər

**Avropa Komissiyası Bolqarıstana uçuş zamanı Avropa Komissiyasının sədri Ursula fon der Lyayenin təyyarəsinin GPS naviqasiya sistemlərində problemlərin meydana gəldiyini, buna baxmayaraq təyyarənin uğurla eniş etdiyini təsdiqləyib. "Trend" xəbər verir ki, bunu AK nümayəndəsi Ariana Podesta Brüsseldə keçirdiyi brifinqdə deyib.**

"Biz təsdiq edirik ki, GPS naviqasiyası pozulub, lakin təyyarə uğurla eniş edib. Bu insident sədrin cəbhəyanı dövlətlərə hazırkı səfərinin əhəmiyyətini vurğulayır. Burada o, Rusiya və onun əlaltılarının gündəlik təhdidlərini öz gözləri ilə gördü", - deyə Podesta qeyd edib

Onun sözlərinə görə, Bolqarıstan hakimiyyəti bu insidentdə Rusiyanı günahlandırır.

Kremlin mətbuat katibi Dmitri Peskov isə qeyd edib ki, Rusiya Avropa Komissiyasının sədri Ursula fon der Lyayenin təyyarəsinin enişi zamanı GPS sistemində baş




vermiş nasazlığa görə məsuliyyət daşımır. Peskov bu ittihamları əsassız adlandırıb.

GPS sistemlərinin bloklanması, xüsusilə təyyarə və digər nəqliyyat vasitələrində ciddi təhlükəsizlik problemləri yarada bilər. Lakin bu cür nasazlıqların mütləq qəza ilə nəticələnmədiyi vurğulanır. GPS-in bloklanması və ya itirilməsi müxtəlif səbəblərdən baş verə bilər və bir çox hallarda bu çətinliklər peşəkar pilotlar tərəfindən idarə oluna bilər.

GPS-in bloklanma səbəbləri arasında texniki nasazlıqlar, hava şəraiti və ya köhnəlmiş avadanlıqlar yer alır. Məsələn, təyyarə və ya yerüstü cihazlarda yaranan sensor problemləri və ya proqram təminatındakı xətalar siqnalın səhv alınmasına və ya itirilməsinə səbəb ola bilər. Eyni zamanda kəskin hava şəraiti - şiddətli yağış, qasırğa və buzlama GPS siqnalının zəifləməsinə və ya tamamilə itirilməsinə yol aça bilər. Belə hallarda təyyarə naviqasiyasının digər sistemlərindən istifadə edilir.

Alternativ naviqasiya sistemləri təyyarə ekipajlarına təhlükəsiz uçuşu təmin etmək üçün geniş imkanlar təqdim edir. Məsələn:

İnertial naviqasiya sistemləri (INS) - GPS ilə müqayisədə daha az dəqiq olsa da, uzun müddətə dayanıqlı alternativlərdən biridir.

Radarlar - təyyarənin mövqeyini müəyyən etmək üçün hava limanlarında və təyyarədə istifadə olunur.

VOR/DME - (VHF Omni-directional Range/Distant Measuring Equipment) sistemləri, ənənəvi radio naviqasiyasını təmin edir və GPS olmadan da təyyarəni düzgün yönləndirə bilir.

Optik naviqasiya metodu ilə pilotlar yerə yaxınlaşdıqları zaman vizual olaraq naviqasiya edə bilərlər.

Bu alternativ sistemlər, təyyarə ekipajlarına GPS-nin itirilməsi vəziyyətində də təhlükəsiz uçuşu təmin etmək üçün lazım olan bütün imkanları təqdim edir. Modern aviasiya sahəsində hər bir uçuş üçün ehtiyat naviqasiya sistemləri və idarəetmə protokolları mövcuddur.

Nəticə olaraq, GPS-in itirilməsi ciddi bir vəziyyət olsa da, heç də həmişə qəza ilə nəticələnmir. Təcrübəli pilotlar və müasir təhlükəsizlik tədbirləri sayəsində bu cür hallarda uçuşun təhlükəsiz şəkildə başa çatması təmin olunur.

**Ehtiyatda olan polkovnik, Azərbaycan Müdafiə Nazirliyinin Hərbi Polisinin keçmiş rəisi, polkovnik Rövşən Məhərrəmov** qəzetimizə açıqlamasında bildirdi ki, həm hərbi, həm də mülki təyyarələrdə naviqasiya önəmlidir. O vurğuladı ki, naviqasiyanın olmaması pilotun "kor" olması deməkdir: "Pilot təyyarəni naviqasiyasız idarə edə bilməz. Naviqasiyasız təyyarəni endirə bilən pilot çox məharətlidir. Görünən odur ki, sözügedən hadisədə təyyarəni aşağı səviyyədə, Yer kürəsini görənə qədər uçurub. Bütün təyyarələr naviqasiyalarla, GPS-lərlə idarə olunur. Bu da bir növ təyyarələr üçün təhlükəsizliyi təmin edir. Yer kürəsi, adından göründüyü kimi, yumru formadadır. Mülki təyyarələr adətən 10-10400 metr hündürlükdə uçur. Nə qədər hündürdə uçsa da, o qədər gücə düşmür. Daha aşağı hündürlükdə uçuşlarda isə bu, təzyiq deməkdir. Naviqasiyasız uçuş həyata keçirmək qəza riskinin yaranması deməkdir".

❑ **Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**

## Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

# Məktəblilərin sağlamlığı təhlükədə

## Dərsliklərin həcmi və ağır çantalar problemi necə həll olunmalı?

**Yeni tədris ilinin başlamasına iki həftədən də az zaman qalıb. Valideynlər övladları üçün məktəb ləvazimatları, geyimlər və çantalar alaraq hazırlıqlarını yekunlaşdırmağa çalışırlar. Lakin hər tədris ilində müzakirə olunan əsas məsələlərdən biri yenə gündəmə gəlir: məktəbli çantasının ağırlığı və onun uşaqların sağlamlığına təsiri.**

Məlum olduğu kimi, müasir tədris proqramı, dərsliklərin həcmi, əlavə dəftərlər, riyaziyyat və rəsmlə bağlı ləvazimatlar, bəzən də texnologiya (planshet, noutbuk və s.) çantaların ağırlığını artırır. İbtidai sinif şagirdlərinin çantası bəzən 5-6 kiloqrama qədər yüksəlir ki, bu da onların bədən çəkisinin 20%-nə yaxın ola bilər. Halbuki mütəxəssislər bildirir ki, çanta uşağın ümumi çəkisinin 10-15%-dən artıq olmamalıdır.

Araşdırmalar və Ümumdünya Səhiyyə Təşkilatının məlumatları göstərir ki, məktəb yaşlı uşaqların 80%-dən çoxu məhz çanta daşımaları səbəbindən bel və kürək ağrılarından əziyyət çəkir. Bu isə yalnız müvəqqəti narahatlıq deyil, gələcəkdə ciddi xəstəliklərin başlanğıcı ola bilər. Məsələn, ağır yük daşıyan uşaqların bel sütunu təzyiqə məruz qalır və bu, skolioz kimi xəstəliklərin yaranmasına səbəb ola bilər. Bel və çiyinlərdəki həddindən artıq gərginlik uşaqlarda daimi ağrı hissi yarada bilər.

Həmçinin daim yorğun gələn şagird dərslərə diqqətini toplamaq və öyrənmə bacarığını inkişaf etdirməkdə çətinlik çəkir.

Ağır çanta daşıyan uşaq yıxıldıqda zədələnmə ehtimalı daha yüksək olur.

Bəs düzgün məktəb çantası necə seçilməlidir?

Valideynlərin ən çox etdiyi səhv yalnız çantanın "gözəl və dəbli" olmasına diqqət yetirməkdir. Halbuki seçimdə əsas meyar uşağın sağlamlığı olmalıdır. Çantanın ölçüsü uşağın boy və çəkisinə uyğun seçilməlidir. Çox böyük və ya çox kiçik çantalar bədənə əlavə yük salır. Anatomik quruluşu nəzərə alınan, bel və çiyinləri dəstəkləyən modellərə üstünlük verilməlidir. Sinə və bel qayışları mütləq olmalıdır - bu, yükün bərabər bölüşdürülməsinə kömək edir. Uzunboylu uşaqlar üçün şaquli, qısaboylu uşaqlar üçün isə üfüqi kürək çantaları daha münasib sayılır. Çantanın boş vəziyyətdə çəkisi də yüngül olmalıdır. Çox ağır materialdan hazırlanan çantalar əlavə yük yaradır. Lakin ekspertlər hesab edir ki, bu problemin həlli yalnız valideynlərin üzərinə düşmür. Burada məktəb və təhsil sisteminin də rolu böyükdür. Yəni gündəlik dərslik sayı azaldılmalı, lazımsız vəsaitlər yüngülləşdirilməlidir.

Texnologiyanın inkişafı imkan verir ki, şagirdlər bütün kitabları daşımadan dərsliklərə elektron formada çıxış əldə etsinlər. Bundan başqa, bir çox ölkədə olduğu kimi, uşaqların dərsliklərini məktəbdə saxlaya bilməsi üçün xüsusi dolablar yaradılmalıdır.



Mövzu ilə bağlı **təhsil eksperti Kamran Əsədov** "Yeni Müsavat"a danışıb. Ekspert də qeyd edib ki, problemdən çıxış yolu olaraq, çalışma dəftərləri sinifdə qalmalı, bundan başqa, yeni təhsil proqramları hazırlanmalı, tədris olunan fənlərin sayı azaldılmalı, kitabların həcmində ixtisarlar edilməlidir: ""Təhsil haqqında" Qanunun 14-cü maddəsində göstərilir ki, dövlət təhsil alanların sağlamlığının qorunmasını təmin etməlidir. Bu, normativ aktda açıq şəkildə yazılıb. Amma praktikada heç bir addım atılmır. Elm və Təhsil Nazirliyi illərdir dərsliklərin "məzmunu" ilə bağlı layihələr həyata keçirir, amma onların çəkisi, həcmi və dizaynı ilə bağlı heç bir tədqiqat aparmır. Halbuki müasir təhsil yanaşmaları göstərir ki, dərsliklərin formatı yalnız bilik ötürmək deyil, həm də uşağın sağlamlığını qorumaq prinsiplərinə uyğun hazırlanmalıdır.

Müsbət tərəf ondan ibarətdir ki, Azərbaycanda dərsliklərin məzmunu ilə bağlı müəyyən yeniliklər aparılıb, rəngli çap, şəkillərlə zənginləşdirmə və yeni dizayn tətbiq olunub. Lakin bu yeniliklər çantaların çəkisini azaltmayıb, əksinə, bəzi hallarda artırıb. Çünki mövzuya bölünmüş çoxcildli dərsliklər və əlavə iş dəftərləri əlavə yük kimi uşaqların çantasında yer alır".

**Ekspert dedi ki, dünya təcrübəsi isə tamamilə başqa istiqaməti göstərir:** "Finlandiyada birinci sinif şagirdlərinin yalnız əsas oxu və riyaziyyat kitabları olur, digər fənlər isə layihə və oyun əsaslı öyrənmə ilə keçirilir. Almaniyada məktəblərdə iş dəftərləri və əlavə materiallar sinifdə qalır, uşaqlar evə yalnız bir neçə kitab aparır. Sinqapur və Cənubi Koreyada isə ibtidai sinif şagirdlərinin böyük əksəriyyəti rəqəmsal dərsliklərdən istifadə edir. Bu yanaşmalar həm sağlamlıq, həm də öyrənmə motivasiyasını qorumağa xidmət edir. Azərbaycanda isə nə rəqəmsal dərsliklərin tətbiqi var, nə də mövcud materialların çəkisini azaltmaq üçün plan hazırlanır. Əslində dəyişməli olan çox sadədir. Çalışma dəftərləri sinifdə qalmalıdır. Tədris olunan fənlərin sayı azaldılmalıdır. Kitabların həcmi ixtisar edilməlidir. Mövzular daha yığcam şəkildə hazırlanmalı, çoxsözlülükdən, təkrarlardan imtina edilməlidir. Nazirlik bunun üçün elmi-tədqiqat institutu yaratmalı, uşaqların sağlamlıq göstəriciləri ilə bağlı monitorinqlər aparmalıdır. Amma heç bir tədqiqat yoxdur, heç bir proqram yoxdur. Sadəcə, kitablar çap olunur və problem illərdir eyni şəkildə davam edir. Əgər bu yanaşma dəyişməsə, yaxın illərdə ibtidai sinif şagirdlərinin sağlamlıq problemləri daha da artacaq. Bununla yanaşı, məktəbə qarşı mənfi münasibət güclənəcək, çünki hər gün məktəbə getmək uşaqlar üçün fiziki əzab demək olacaq. Halbuki məktəb uşağın həyatında sevinc, maraq və inkişaf məkanı olmalıdır. Dərsliklərin çəkisinin azaldılması, rəqəmsal resursların tətbiqi, fənlərin yüngülləşdirilməsi həm sağlamlıq, həm motivasiya, həm də təhsilin keyfiyyəti üçün mühüm addımdır".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY

# Məktəb təmirinə görə yenə pul yığılır?

**Nərimanov rayonunda yerləşən 43 saylı orta məktəbdə valideynlərdən təmir məqsədilə pul yığılması ilə bağlı sosial şəbəkələrdə yayılan iddialar cəmiyyətdə ciddi narazılıq doğurub.**

Məsələ ilə əlaqədar Modern.az müvafiq məktəb-liseyi və Bakı Şəhər Təhsil İdarəsi (BŞTİ) ilə əlaqə saxlayıb.

Məktəb-lisey kompleksinin məlumatına əsasən təhsil müəssisəsində yeni tədris ili öncəsi valideynlərlə ənənəvi görüş keçirilib. Əvvəlki illərdəki ənənəyə uyğun olaraq tədris korpusu dəyişən VI və VII sinif şagirdlərinin valideynləri övladlarının təhsil alacağı korpusla tanış olublar. Valideynlər həmin tədris korpusunun durumu ilə bağlı rəylərini bildiriblər.

Məktəb rəhbərliyi tərəfindən həmin valideynlərə bildirilib ki, bu korpusun təmiri üçün aidiyyəti üzrə müraciət olunub.

Bununla bağlı valideynlərdən vəsait tələb olunmasına dair iddialar tamamilə əsassızdır.

Pedaqoji kollektivin əsas məqsədi yeni dərs ilində məktəbimizdə daha səmərəli təhsil mühitinin formalaşmasına və qarşılıqlı etimada əsaslanan münasibətlərin yaradılmasına nail olmaqdan ibarətdir.

Qeyd edək ki, Bakı şəhəri Məktəb-Lisey Kompleksinin fəaliyyəti Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən nəzarətdə saxlanılır.

"Yeni dərs ilinə hazırlıq çərçivəsində təhsil müəssisələrinin infrastruktur və digər istiqamətlər üzrə ehtiyacları müəyyənləşdirilib və müvafiq tədbirlərin görülməsi məsələsinə baxılır", - deyə BŞTİ-dən bildirilib.



# Məktəbli geyimləri ilə bağlı rəsmi açıqlama



**Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi (MÜTDA) məktəbli geyimləri ilə bağlı məlumat yayıb. MÜTDA-nın məlumatına görə, ümumi təhsil müəssisələrində tətbiq edilən vahid məktəbli geyimlərinin əldə edilməsinin asanlaşdırılması və valideynlər üçün əlçatanlığın təmin edilməsi məqsədilə ölkə üzrə satış məntəqələrinin ünvanları təqdim edilib. Vətəndaşlar qeyd edilən, eləcə də ölkəmizin şəhər və rayonlarında fəaliyyət göstərən istənilən satış məntəqələrinə müraciət edə bilərlər.**

"Nəzərinizə çatdırırıq ki, məktəbli formalarının əldə edilməsi üçün seçim sərbəst şəkildə həyata keçirilir. Valideynlərin məqsədli şəkildə hansısa satış məntəqəsinə yönləndirilməsi yolverilməzdir. Bununla bağlı agentliyin yerli bölmələrinə və tabe müəssisələrinə müvafiq tapşırıqlar verilib. Valideynlər məktəbli formaları ilə bağlı hər hansı sual və ya müraciət olduğu halda Agentliyin və yerli bölmələrinin "Çağrı Mərkəzi" ilə əlaqə yarada bilərlər.

Qeyd edək ki, 2022-ci ildə hər bir ümumi təhsil müəssisəsinin Pedaqoji Şurası tərəfindən 4 növ geyim formasından birinin tətbiqi ilə bağlı müvafiq qərar qəbul edib. Valideynlər, xüsusilə övladları birinci sinfə gedənlər Agentliyin və yerli bölmələrinin çağrı mərkəzi, eləcə də uşaqlarının təhsil alacağı məktəbdən bu barədə ətraflı məlumat əldə edə bilərlər.

YENİ MÜSAVAT

Son səhifə

*N 156 (8766) 3 sentyabr 2025*

Avqust



## Ər-arvad bir-birinə psixi pozğunluq "yoluxdura" bilər

**Beynəlxalq alimlər qrupu ər-arvadlarda eyni psixi pozğunluqların əvvəllər düşünüldüyündən daha tez-tez baş verdiyini müəyyən edib. Araşdırmanın nəticələri "Nature Human Behavior" (NHB) jurnalında dərc olunub. Alimlər Tayvanda beş milyon cütlüyün sağlamlıq məlumatlarını təhlil ediblər. Bundan əlavə, Danimarka və İsveçdə bir milyondan çox ailə haqqında məlumat da araşdırmaya daxil edilib. Tədqiqatçılar milli sağlamlıq reyestrlərindəki psixiatrik diaqnozları öyrənərək, ər-arvadlarda psixi pozğunluqların üst-üstə düşmə ehtimalını analiz ediblər.**

Nəticələr göstərib ki, korrelyasiya eyni vaxtda doqquz müxtəlif psixi xəstəlik üzrə müşahidə olunur və bu təsir bir neçə nəsil ərzində davam edə bilir. Həmçinin qanunauyğunluq müxtəlif ölkələrdə eyni şəkildə qeydə alınıb ki, bu da onun universal xarakter daşıdığını sübut edir.

Müəlliflərin sözlərinə görə, tərəfdaşlarda psixi vəziyyətlərin oxşarlığı digər xəstəliklərin yayılmasına şərait yarada, müşayiət olunan diaqnozların riskini artıra və genetikanın rolunun qiymətləndirilməsinə təsir göstərə bilər. Mütəxəssislər qeyd ediblər ki, bu məlumatlar psixi pozğunluqların müalicəsi və qarşısının alınması strategiyaları hazırlanarkən nəzərə alınmalıdır.

## Tramp koronavirus dərmanlarının effektivliyinin açıqlanmasını istəyir

**"Əczaçılıq şirkətləri öz preparatlarının koronavirusa qarşı effektivliyi ilə bağlı məlumatları açıqlamalıdır". Bu barədə ABŞ Prezidenti Donald Tramp "Truth Social" platformasında yazıb. "Əczaçılıq şirkətlərinin COVİD-ə qarşı dərmanlarının uğurunu əsaslandırmaları çox vacibdir. Çoxları bunu milyonlarla insanın həyatını xilas edən möcüzə hesab edir. Digərləri bununla razılaşmır. Mən cavab istəyirəm və onu indi istəyirəm", - deyə Ağ Ev rəhbəri yazıb.**

# Dünyanın ən dadlı və fərqli suşisi...



**Yaponiyanın paytaxtı Tokioda suşi hazırlamaq üzrə dünya çempionatı keçirilib. Yarış Yaponiya hökumətinin dəstəyi ilə yaradılmış Dünya Suşi Sənəti İnstitutu tərəfindən təşkil olunub. Yarışın qalibi Norveçin paytaxtı Osloda yaşayan litvalı suşi ustası Ayris Zapaşnikas olub. Ən dadlı və fərqli suşini hazırlayan aşpaz qələbəsini şərh edib. O bildirib ki, yarışda qaydalar çox sərt olub.**

"Təyin edilən vaxta qədər suşini hazırlayıb təqdim etməlisən. Sizə ayrılmış vaxtdan artıq işləməyə davam edərsinizsə, yarışdan diskvalifikasiya olunacaqsınız. Əgər suşi ustası barmağını kəsərsə, o, avtomatik xal itirir. İstifadə etmədiyiniz balıq tikəsini atmaq balların silinməsinə səbəb olur. Yaradıcılığımızı, yeniliklərimizi göstərə bildik və qalib olduq", - Ayris Zapaşnikas bildirib.



## Bu qidalar dişlərinizi qoruyur

**Sağlam təbəssüm üçün D, C, B12 və A vitaminləri vacibdir. Stomatoloq və cərrah-parodontoloq Olesya İzqareva bildirib ki, sağlam dişlərin qorunması üçün D ən önəmli vitamindir. O, deyib ki, D vitamini fosfor və kalsiumun yaxşı mənimsənilməsinə kömək edir, bu da dişlərin, çənənin və sümüklərin möhkəmlənməsini təmin edir. Günəş işığı bu vitaminin ən böyük mənbəyidir, eləcə də somon, sardina, pendir və süd faydalıdır.**

İzqareva həmçinin qeyd edib ki, C vitamini çatışmazlığı damar divarlarını zəiflədərək diş ətində qanamalara və dişlərin sallanmasına səbəb ola bilər. Bu səbəbdən qara qarağat, qırmızı bibər, limon, dəniz balqabağı, göyərti və itburnu dəmləməsi kimi təzə meyvə və giləmeyvələr gündəlik qidalanmaya əlavə edilməlidir. B12 vitamini çatışmazlığı isə ağızda xoralar, dilin yanması, selikli qişa iltihabı, hissiyyatın azalması və zəiflik yarada bilər. Bu riski azaltmaq üçün mal əti, balıq, yumurta və digər məhsullar istehlak olunmalıdır.

## Smartfonların qiyməti bütün dünyada artacaq

**Bütün dünyada smartfon istehsalçıları yeni cihazların qiymətlərini qaldırmağa hazırlaşırlar. Bu barədə "DigiTimes" nəşri xəbər verir. Qiymət artımına səbəb kimi istehsal xərclərinin qalxması göstərilir. Bu, Tayvanın müasir prosessorlar istehsal edən TSMC (Taiwan Semiconductor Manufacturing Company) korporasiyasının məhsulun qiymətlərinin 5-10% artması barədə tərəfdaşlarına məlumat verməsi ilə əlaqədardır. Bu da öz növbəsində, yeni smartfonların qiymətinə təsir edəcək. TSMC prosessorları yeni "iPhone"larda istifadə olunacaq. "Samsung Galaxy S26" cihazları TSMC tərəfindən də istehsal olunan "Qualcomm Snapdragon 8 Elite Gen 2" çipləri ilə buraxılmalıdır.**

## Bunları bilirsinizmi?

* Yeni doğulmuş uşaqların göz yaşı olmur. Yalnız doğumdan 7 həftə sonra uşaqlarda göz yaşı meydana çıxır.

* Mavi rəngdə insan beynini sakitləşdirən hormonlar mövcuddur. Bu səbəbdən Facebook, Twitter, Skype və s. böyük sosial şəbəkələr mavi rəngdən istifadə edir.

* İndoneziyanın bəzi bölgələrində rəsmi olaraq soyaddan istifadə olunmur və onlar Facebook-a qeydiyyata düşərkən, sadəcə, ad yazmaq mümkün olur.

* Doğuş dünyada ən çox ağrı verən ikinci hadisədir, birincisi isə canlı-canlı yanaraq ölməkdir.

* Eynşteynə dünya gözəllik kraliçası "gəl səninlə evlənək, uşağımız sənin qədər savadlı, mənim qədər gözəl olsun" deyib. Eynşteynin cavabı isə çox məntiqli olub: "Ya mənim qədər çirkin, sənin qədər ağılsız olsa..?"

* Qədim zamanlarda Çində həkimlərə insanları yalnız yaxşı etdikdən sonra ödəniş edilirdi.

* Atlar 1 ay ayaq üstə qala bilirlər.

* İnsanların 90%-dən çoxu bir vaxtlar ən yaxın dostum dedikləri insanlarla artıq dost deyillər.

* Problemlerinizi heç kimə danışmayın, çünki insanların 20%-i probleminizin olduğunu vecinə almır, qalan 80%-i isə probleminizin olduğuna sevinir.

*Araşdırmalara görə, biri ilə nə qədər çox danışsanız, o insana aşiq olmaq ehtimalınız da o qədər artar.

* Kişiləri ildırım vurma ehtimalı qadınlara nisbətən 6 dəfə çoxdur.

* İnsan gözü 526 megapikseldir. Əgər insan gözü qədər keyfiyyətdə fotoaparat olsaydı, çəkiləcək tək bir şəklin həcmi 2.5 Gb olardı.

## Yağlı qida insultun əsas səbəbi ola bilər

**Doymuş yağlarda bişən yeməyin qəbulu beyni qanla təmin etməyə məsul olan qan damarlarının işini poza bilər. Bu barədə "The Journal of Nutritional Physiology" jurnalında nəşr edilən məqalədə qeyd olunub. Mütəxəssislər deyirlər ki, beyin kənar təsirlərə xüsusilə həssasdır, çünki onun öz enerji ehtiyatı demək olar ki, yoxdur və qandakı daimi oksigen və qlükoza axınından asılıdır.**

Qeyd olunur ki, yağlı yeməkdən sonra qan damarları elastikliyini itirir və orqanizmdəki dalğalanmaların öhdəsindən daha pis gəlir, bu da mikrozədələnmələri, insult kimi riskləri artırır. Doymuş yağın təhlükəsiz gündəlik qəbulu kişilər üçün 30, qadınlar üçün 20 qram olsa da, əslində çoxu müntəzəm olaraq bu normanı pozur.



## Siqaret çəkənlərdə bu vitamin çatışmır

**Siqaret çəkənlərdə C vitamini çatışmazlığı müşahidə olunur. Psixiatr və narkoloq, həkim Ruslan İsayev Gazeta.ru-ya açıqlamasında bildirib ki, siqaret çəkənlərin qan plazmasında askorbin turşusunun miqdarı siqaret çəkməyənlərlə müqayisədə xeyli aşağı olur.**

Həkimin sözlərinə görə, tütünün yanma məhsulları orqanizmdə oksidləşdirici stress yaradır və C vitamini sərbəst radikalları zərərsizləşdirmək üçün daha sürətlə xərclənir. Bundan başqa, siqaret çəkənlərdə askorbin turşusunun parçalanması və orqanizmdən xaric olunması da sürətlənir. İsayev qeyd edib ki, siqaret çəkən kişilər və qadınların gündəlik C vitamini ehtiyacı siqaret çəkməyənlərlə müqayisədə təxminən 35 milliqram çoxdur.

O, bununla yanaşı vurğulayıb ki, siqaretin yaratdığı C vitamini çatışmazlığını yalnız qida və ya əlavələrlə tam aradan qaldırmaq mümkün deyil. Bu vitamin immunitetin, damarların, dərinin sağlamlığı və antioksidant müdafiə üçün vacibdir, lakin onun əlavə qəbulu tütün tüstüsünün tənəffüs və ürək-damar sisteminə dağıdıcı təsirini neytrallaşdırmır, sadəcə, sürətlə tükənən ehtiyatları bərpa etməyə kömək edir.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d

Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 1.500